Azərbaycan Mikromaliyyə Assosiasiyası

AMFA

Azerbaijan Micro-finance Association

# YEKUN HESABAT

## Maliyyə savadlılığı üzrə keçirilmiş sorğunun NƏTİCƏLƏRİ

*Azərbaycan Respublikası Mərkəzi Bankı üçün hazırlanmışdır*

30 dekabr 2009-cu il
Bakı, Azərbaycan

Yekun Hesabat AMA-nın tədqiqat üzrə meneceri İlkin Nəzərov tərəfindən hazırlanmışdır.

Qeyd: Bu Hesabat Azərbaycan Respublikası Mərkəzi Bankı, Dünya Bankı və İsveçrənin SECO təşkilatının dəstəyi ilə “Maliyyə Xidmətlərinin İnkişafı Layihəsi” çərçivəsində “Maliyyə Savadlılığı Sorğusu”nun nəticələri əsasında hazırlanmışdır. Burada ifadə olunan fikirlər Azərbaycan Mikromaliyyə Assosiasiyasına (AMA) məxsusdur və əks olunan ifadələrə görə Mərkəzi Bank, Dünya Bankı və SECO heç bir məsuliyyət daşımır.

Azərbaycan Mikromaliyyə Assosiasiyası (AMA) 27 üzv olan təşkilatları təmsil edir. AMA 2001-ci ildə təsis edilmiş və 2004-cu ilin noyabrında Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.

Cəfər Cabbarlı küç, 44, Caspian Plaza III, 9-cu mərtəbə, Bakı AZ1065
Tel/Faks: (+994 12) 437 16 45; 437 23 39, www.amfa.az.

# MÜNDƏRİCAT


**Giriş.......................................................................................... 5**

**1. Metodoloji yanaşma və texniki məsələlər.................................. 6**

**2. Respondentlərin sosial-demoqrafik xarakteristikası…............ 11**

**3. Maliyyə savadlılığı üzrə mövcud vəziyyət..................……… 14**

2.1. Maliyyə idarəetməsi və borclanma……………………….…...... 14
2.2. Maliyyə məlumatlılığı və istehlakçı hüquqları………………..... 18
2.3. Riyazi maliyyə savadı……………………………………….…..... 22
2.4. Maliyyə xidmətlərindən istifadə səviyyəsi.....………………...... 29
2.5. Bank xidmətləri və ödəniş kartları……………………………..... 32

**4. Əsas nəticələr və tövsiyələr...................................................... 36**

4.1 Nəticələr........................................................................... 36
4.2. Tövsiyələr........................................................................ 41

ƏLAVƏLƏR

*1. Sorğu Anketinin sualları üzrə cədvəllər....................................... 43*
*2. Sorğu Anketi……………………...………………………………….. 66*
*3. Araşdırmanın ilkin nəticələri üzrə təqdimat…………………......... 79*

## Akronim və ixtisarlar

| | |
|---|---|
| **AMA** | Azərbaycan Mikromaliyyə Assosiasiyası |
| **ARMB** | Azərbaycan Respublikası Mərkəzi Bankı |
| **DB** | Dünya Bankı |
| **ET** | Ev təsərrüfatı |
| **MSS** | Maliyyə Savadlılığı Sorğusu |
| **SECO** | İsveçrə hökumətinin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi |
| **%** | Faizi ifadə edir |
| **n** | Sayı ifadə edir |

# GİRİŞ

Son illər Azərbaycanda iqtisadiyyatın digər sahələrində olduğu kimi maliyyə xidmətləri sahəsində də sürətli inkişaf müşahidə edilir. Bu xidmətlər arasında bank, sığorta və poçt xidmətləri aparıcı mövqe tutur. Sözügedən xidmətlərin əsas istehlakçılarından biri də fiziki şəxslərdir. Belə ki, ölkədə artıq 3,6 milyondan yuxarı əhali ödəniş kartlarından və 500 min civarında əhali isə istehlak kreditlərdən istifadə edir. Əhalinin maliyyə xidmətlərindən daha səmərəli istifadə edilməsinin təmin edilməsi üçün maliyyə savadlılığının artırılması və istehlakçı hüquqlarının daha yaxşı qorunması mühüm rol oynayır. Bunun üçün ilk növbədə əhalinin maliyyə savadlılığının mövcud vəziyyətinin öyrənilməsi və problemlərin müəyyənləşdirilməsi zəruridir.

Maliyyə savadlılığının artırılması və istehlakçı hüquqlarının qorunması dünyada son onillikdə daha çox aktuallaşmışdır. Azərbaycanın dünyaya sürətlə inteqrasiya etməsi sözügedən məsələlərin araşdırılması və müvafiq tədbirlərin həyata keçirilməsini ölkəmiz üçün də aktuallaşdırmışdır.

Yuxarıda qeyd edilən məsələlərin zəruriliyini nəzərə alaraq, AR Mərkəzi Bankı, Dünya Bankı və İsveçrənin SECO təşkilatı əhalinin maliyyə savadlılığının araşdırılması tədqiqatının aparılmasına qərar vermişlər. Sözügedən Layihənin **əsas məqsədi** “Maliyyə Savadlılığı Sorğusu”nun keçirilməsi, Vahid Məlumat Bazasının yaradılması və sorğunun nəticələrini əks etdirən Hesabatın hazırlanması olmuşdur.

Sorğu çərçivəsində ev təsərrüfatlarının gəlir və xərclərinin idarə edilməsi, əhalinin riyazi maliyyə savadı, maliyyə xidmətləri haqqında məlumatlılıq səviyyəsi, maliyyə xidmətlərindən istifadə səviyyəsi və istehlakçı hüquqlarının mövcud vəziyyəti araşdırılmışdır. Tədqiqatın nəticələri əhalinin maliyyə savadlılığı və məlumatlılığı üzrə baza göstəriciləri kimi istifadə oluna bilər.

Yekun Hesabatın birinci bölməsində tədqiqatın metodoloji yanaşması və həyata keçirilmiş işlər haqqında ətraflı məlumat verlir, ilkinci bölmədə respondentlərin sosial-demoqrafik vəziyyəti təqdim edilir, üçüncü bölmədə sorğunun nəticələri əsasında maliyyə savadlılığının müxtəlif aspektləri (maliyyə idarəetməsi və borclanma; maliyyə məlumatlılığı və istehlakçı hüquqları; maliyyə məlumatlılığı və istehlakçı hüquqları; riyazi maliyyə savadı; maliyyə xidmətlərindən istifadə; bank xidmətləri və ödəniş kartları) üzrə mövcud vəziyyət təhlil edilir, dördüncü bölmədə isə tədqiqatın əsas nəticələri və tövsiyələr təqdim edilir. Eyni zamanda, Əlavə 1-də sorğunun əsas nəticələri üzrə cədvəllər, əlavə 2-də sorğu anketi, əlavə 3-də isə layihənin ilkin nəticələrini əks etdirən təqdimat (dekabrın 17-si 2009-cu ildə Maliyyə savadlılığı üzrə seminarda təqdim edilmişdir) verilir.

# I. METODOLOJİ YANAŞMA VƏ TEXNİKİ MƏSƏLƏLƏR

Maliyyə Savadlılığı Sorğusunun həyata keçirilməsi üçün aşağıdakı metodoloji yanaşma və fəaliyyətlərdən istifadə edilmişdir:

| Fəaliyyət | Fəaliyyətin qısa təsviri |
|---|---|
| **Rusiya modelindən istifadə edərək çox cavablı sorğu anketinin hazırlanması** | Sorğu anketinin hazırlanmasında Mərkəzi Bank tərəfindən təqdim edilən və Rusiayada keçirilən analoji sorğunun anketindən istifadə edilmişdir. Sorğu anketi ingilis dilindən azərbaycan dilinə tərcümə edildikdən sonra sualların Azərbaycan kontekstinə uyğunlaşdırılması aparılmış, uyğun olmayan suallar çıxarılmış və yeniləri daxil edilmişdir. Sorğu anketinin hazırlanması dövründə Mərkəzi Bank və digər aidiyyatı təşkilatların nümayəndələri ilə görüşlər təşkil edilmiş və e-poçtu vasitəsilə onların rəy və təklifləri müzakirə edilmişdir.<br><br>Sorğu anketinin son variantı 65 sualdan ibarət olmuş və əsasən ev təsərrüfatlarının gəlir və xərclərin qeydiyyatının aparılması, maliyyə məlumatlılığı, riyazi maliyyə savadı, maliyyə xidmətlərindən istifadə zamanı istehlakçı hüquqlarının pozulması, maliyyə xidmətlərindən istifadə, ödəniş kartları və respondentlərin sosial-demoqrafik vəziyyətini əks etdirən sualları əhatə etmişdir. Sorğu anketi azərbaycan dilində  tam hazırlandıqdan sonra ingilis dilinə yenidən tərcümə edilmişdir. Sorğu Anketi əlavə 2-də verilmişdir. |
| **Seçmə çərçivəsinin və seçmə miqyasının müəyyən edilməsi** | Seçmə çərçivəsi kimi 8 iqtisadi region (ölkənin 2 iqtisadi regionu işğal altındadır) və Bakı şəhərində 1200 respondent müəyyən edilmişdir. Sorğunun 1200 respondent arasında keçirilməsinin əsas səbəbi seçmə sayının bu cür sorğuların keçirilməsi üçün reprezentativ olması və layihənin maliyyə imkanlarına uyğunluğu olmuşdur. Şəhər kənd nisbəti isə statistik göstəriciyə uyğun olaraq 54% və 46% nisbətlərində müəyyən edilmişdir. Daha geniş məlumat Cədvəl 1.1-də verilmişdir. |
| **Sorğu planının hazırlanması və sorğu üçün seçimlərin aparılması** | Seçmə 2 mərhələdə aparılmışdır: i) Birinci mərhələdə ölkə əhalisinin paytaxt, digər şəhər və kənd yerləri və iqtisadi regionlar üzrə bölgüsü nəzərə alınmaqla və ilkin seçmə vahidi küçə və kənd olmaqla (hər ilkin seçmə vahidi 15 respondenti əhatə edir) aparılmış; ii) İkinci mərhələdə seçməyə düşən şəhərlərdə küçələr və inzibati rayonların ərazisində isə mövcud olan kəndlər təsadüfi yolla seçilmişdir. Misal üçün: Seçmənin 1-ci mərhələsinin nəticələrinə görə Quba rayonunda 45 nəfər arasında sorğu aparılmalıdır və respondentlərin 15-i şəhər və 30-ü kənd yerlərindən seçilməlidir. İlkin seçmə vahidinin 15 respondent təşkil etməsini nəzərə alınaraq, deməli Quba şəhərindən və ya Qəsəblərdən bir küçə, kəndlərdən isə 2-si sorğu üçün təsadüfi seçilməlidir. |
| **SPSS proqramında məlumatların daxil edilməsi və təhlili üçün tələb olunan proqram təminatının yaradılması və məlumatların daxil edilməsi üçün təlimatların hazırlanması** | Məlumatların daxil edilməsi və təhlili üçün SPSS proqramında xüsusi proqram təminatı hazırlanmışdır. Eyni zamanda, məlumatların daxil edilməsi ilə bağlı təlimatlar hazırlanaraq operatorlara paylanılmış və izah edilmişdir. İstinad mənbəyi kimi istifadə edilən təlimatlar məlumatların daxil edilməsi ilə bağlı texniki məsələlərin izahını verir. |

| | |
|---|---|
| **Nəzarətçilər və müsahibəçilər üçün təlimatların hazırlanması** | Nəzarətçilər üçün təlimatlar sorğu üzrə sahə mütəxəssisindən sorğu anketinin alınması, müsahibə aparan şəxslər ilə əlaqələndirmə, sahə işlərinə nəzarət, müsahibə aparan şəxslərdən sorğu anketlərinin yığılması, sorğu anketlərinin yoxlanılması və onların sorğu üzrə sahə mütəxəssisinə təqdim edilməsi prosesləri üzrə qaydaları izah edir. Müsahibə aparan şəxslər üçün təlimatlar nəzarətçilərdən sorğu anketlərinin alınması, respondentlər ilə sorğuların aparılması, sorğu anketlərinin doldurulması, nəzarətçilər ilə birgə sorğu anketlərinin yoxlanılması və onların nəzarətçilərə təqdim edilməsi qaydaları, eləcə də, nəzakətli davranışlar, sorğunun yenidən keçirilməsi, korlanmış sorğu anketlərinin ləğv edilməsi və ya geri qaytarılması, sorğu başa çatmadıqda onun növbəti gündə davam etdirilməsi, gözlənilməz hallar baş verdikdə kimə müraciətin edilməsi üzrə qaydaları izah edir. |
| **Nəzarətçilər və müsahibəçilər üçün təlim materiallarının hazırlanması və təlimlərin təşkili** | 3 peşəkar nəzarətçidən və 12 müsahibə aparan şəxsdən ibarət sorğu qrupu seçilmiş və onlar üçün təlim təşkil edilmişdir. Nəzarətçilər üçün bir gün əvvəl təlim təşkil edilmiş və bütün qaydalar onlara izah edilmişdir. Bundan sonra isə nəzarətçilər və müsahibəçilər üçün birgə bir günlük təlim təşkil edilmişdir. Təlim aşağıdakı mövzuları əhatə etmişdir: i) sorğuların keçirilməsi üzrə təcrübələrin nəzərdən keçirilməsi və praktik olaraq tətbiq edilməsi; ii) sorğunun məram və məqsədlərinin müzakirə edilməsi; iii) sorğu metodologiyasının təqdimatı; iv) respondentlə müsahibənin aparılması, müsahibə üsullarının izah edilməsi və müvafiq sualların cavablandırılması; v) nəzarətçilər və müsahibəçilər üçün təlimatların izah edilməsi; vi) qrup çərçivəsində sınaq sorğunun və ya iştirakçılar arasında testlərin həyata keçirilməsi (qrupa daxildir: respondent qismində bir iştirakçı, müsahibəçi qismində bir iştirakçı və nəzarətçi qismində bir iştirakçı və əksinə). Təlimlər noyabr ayının 18-19-da Bakı şəhərində təşkil edilmişdir. |
| **Pilot sorğunun keçirilməsi** | Təlimin sonunda müsahibəçilər və nəzarətçilər pilot sorğu həyata keçiriblər. Hər bir nəzarətçi və müsahibəçi təsadüfi seçmə üsulu ilə müəyyən edilən ev təsərrüfatları arasında 1-2 sorğu aparmışdır. Bakıda təqribən 27 ev təsərrüfatı sorğuya cəlb olunmuşdur. İlkin testlərin məqsədi aşağıdakı məqamların öyrənilməsindən ibarət olmuşdur:<br>• Həssas suallar sorğu anketinin sonunda yerləşməklə suallar münasib ardıcıllıq ilə düzülmüşdür;<br>• Suallar respondentlər və müsahibəçilər tərəfindən aydın başa düşülür;<br>• Hər bir sual müxtəlif məsələləri deyil, yalnız bir fikri əhatə edir;<br>• Suallar demək olar ki, bütün respondentlərə şamil olunur;<br>• Bütün suallar üzrə bitkin cavabın alınması və yalnız bir neçə sualın cavablandırılmaması və ya digər kateqoriyaya düşməsi ehtimalı;<br>• Sualların cavablandırılması üçün heç bir əlavə səy tələb olunmur;<br>• Suallar mümkün qədər dəqiq cavablandırıla bilinir.<br>Pilot sorğunun nəticələri məlumat bazasının yaradılmasına və sorğu anketinin mətninə düzəlişlərin edilməsinə imkan yaratmışdır. |
| **Sorğu anketinin və digər materialların çap edilməsi və paylanması** | Pilot sorğudan sonra sorğu anketi və təlimatlar çap edilərək sorğu üzrə sahə mütəxəssisi tərəfindən nəzarətçi və müsahibəçilərə paylanılmışdır. |
| **Yerlərdə sorğuların keçirilməsi və məlumatların** | Sorğu ev təsərrüfatlarında (ev təsərrüfatı dedikdə bir büdcədən istifadə edib və bir evdə yaşayanlar nəzərdə tutulur) üzbəüz müsahibə formasında 2009-cu ilin 21 noyabr və 10 dekabr aralığında keçirilmişdir. Sorğu ev təsərrüfatında 18 yaşı tamam olan və ondan yuxarı yaşda (müsahibə vermək iqtidarında olmayanlar |

| | |
|---|---|
| **toplanması** | istisina olmaqla) ən sonuncu doğum tarixi (il ərzində) qeyd olunanlar arasında keçirilmişdir. Bu metoddan istifadə olunmasının məqsədi gender və yaş nisbətlərinə görə tarazlığın təmin edilməsi olmuşdur.<br><br>Sorğu zamanı alınan bütün cavablar standart sorğu vərəqəsində qeyd edilmişdir. Sorğu azərbaycan dilində aparılmışdır. Hər müsahibənin orta müddəti 35 dəqiqə olmuşdur.<br><br>Müsahibəçi sorğu götürdüyü evdən sonra 3 evi buraxaraq növbəti evdə sorğu götürmüşdür. Sonucu doğum tarixi qeyd olunan evdə olmadığı və ya sorğudan imtina edildiyi halda müsahibəçi növbəti evdən sorğu götürmək üçün müraciət etmişdir. Seçilən küçə və ya kənddə 15 respondent ilə sorğu keçirilə bilmədiyi halda isə müsahibəçi nəzarətçini məlumatlandırmaqla sözügedən küçə və ya kənddə ən yaxın digər küçə və ya kənddə sorğunu davam etdirmişdir. Qeyd etmək lazımdır ki, belə vəziyyət nadir hallarda baş vermişdir.<br><br>Sorğu zamanı imtina halları 19% təşkil etmiş, 21 sorğu anketində isə (ümumi respondentlərin 1,7%-i nisbətində) qarışıq cavablar tapılmış və sorğu anketləri ləğv edilərək yenidən sorğu keçirilmişdir. |
| **Müsahibələrin keyfiyyətinin yoxlanılması və nəzarət** | Müsahibələrin keyfiyyəti üzrə nəzarət funksiyası nəzarətçilər tərəfindən həyata keçirilmişdir. Onlar sorğu anketinin keyfiyyətini və tamlığını yoxlamışdır. Bundan başqa, nəzarətçilər yoxlama məqsədi daşıyan səfərlər edərək (hər bir müsahibəçi üzrə respondentlərin 5%-i) təsadüfi seçmə üsulu ilə müəyyən edilən müsahibələr aparmış, respondent ilə görüşmüş və müvafiq yoxlama hesabatı hazırlamışlar. Yoxlama prosesindən sonra nəzarətçilər sorğu anketlərini sorğu üzrə sahə menecerinə təqdim etmişlər. Sorğu üzrə sahə meneceri də öz növbəsində yerlərə səfərlər etmiş və müsahibələrin 5%-ini yoxlamışdır.<br><br>*Müstəqil monitorinq mütəxəssisinin cəlb edilməsi:* Müsahibələrin keyfiyyəti, eyni zamanda müstəqil monitorinq mütəxəssisi tərəfindən də yoxlanılmışdır. Müstəqil monitorinq mütəxəssisi tərəfindən təsadüfi seçmə üsulu ilə bütün regionları əhatə edən ümumi respondentlərin 10%-i (120 respondent) müəyyən edilmiş, telefon zəngləri vasitəsilə yoxlanılmış və ehtiyac duyulan anda yerlərə səfərlər edilmişdir.<br><br>Beləliklə, keçirilmiş sorğuların 20%-i nəzarətçilər, sorğu üzrə sahə mütəxəssisi və monitoring üzrə mütəxəssis tərəfindən təsadüfü yolla yerində və telefon vasitəsi ilə yoxlanılmışdır. Yoxlama zamanı 21 sorğu anketində (təqribən ümumi sorğu anketlərinin 1.7%-i) qarışıq cavablar tapılmış və onlar ləğv edilərək yenidən sorğu keçirilmişdir.<br><br>Bütün bu tədbirlər yoxlama hesabatlarının tamamlanmasına və sorğunun keyfiyyətlə aparılmasına yardım etmişdir. |
| **Məlumatların daxil edilməsi, təmizlənməsi və Vahid Məlumat Bazasının yaradılması** | Məlumatların daxil edilməsi və təhlili müvafiq proqram təminatından (SPSS) istifadə etməklə operatorlar vasitəsilə həyata keçirilmişdir. Məlumatların daxil edilməsi zamanı bütün sorğu vərəqələri kodlaşdırılmışdır. Məlumatların təmizlənməsi ilə bağlı mütəxəssis tərəfindən əlavə nəzarət və təmizlənmə işləri aparılmışdır. Əsas məntiqi yoxlama prosesindən sonra ilkin təhlil vasitəsilə Vahid Məlumat Bazası yoxlanılmışdır.<br><br>Sorğu anketinin sualları əsasında Vahid Məlumat Bazası SPSS proqramında yaradılmışdır. Vahid Bazaya sorğu anketinə 1207 respondentin verdiyi cavablar |

| | |
|---|---|
| | daxil edilmişdir. |
| **İlkin nəticələrin təqdimatı** | Sorğunun ilkin nəticələri PPT formatında hazırlanmış və 17 dekabr 2009-cu ildə Mərkəzi Bankda "Maliyyə istehlakçılarının hüquqlarının qorunması və əhalinin maliyyə savadlığının artırılması" Layihəsi çərçivəsində keçirilən seminarda təqdim edilmişdir. Sözügedən təqdimat Əlavə 3-də verilmişdir. |
| **İlkin təhlil, rəy və təkliflər üçün İlkin Hesabatın hazırlanması** | İlkin təhlil sorğu anketinin sualları əsasında aparılmış və hesablanmış cədvəllərdə cavablar say və faizlə verilmişdir. İlkin təhlil ümumi (qadın və kişi üzrə ayrıca), paytaxt, digər şəhər yerləri, kənd yerləri və ehtiyac duyulan yerlərdə iqtisadi regionlar üzrə aparılmışdır. Sorğunun nəticələrini əks etdirən cədvəllərin qısa şərhi hər bir cədvəlin başlığında qeyd edilmişdir. |
| **Yekun Hesabatın işlənib hazırlanması** | İlkin Hesabata verilən rəy və tövsiyələr nəzərə alınmaqla Yekun Hesabat hazırlanmışdır. |

Beləliklə, Maliyyə Savadlılığı Sorğusunun həyata keçirilməsi üçün müəyyənləşdirilmiş fəaliyyətlərin icra statusu aşağıdakı kimi olmuşdur:

| # | Fəaliyyətin adı | İcra statusu[1] |
|---|---|---|
| 1. | Rusiyada istifadə edilmiş maliyyə savadlılığı sorğusu modelinin Azərbaycan dilinə tərcümə edilməsi | + |
| 2. | Azərbaycanın əlaqədar nazirliklərinin sorğu suallarına dair əlavə təklifləri olduğu təqdirdə məsləhətçi şirkət tərəfindən onların müvafiq surətdə nəzərə alınması və sorğuya daxil ediləcək sualların müvafiq ifadə tərzi ilə təmin edilməsi | + |
| 3. | Yerlərdə sorğunun təşkili üçün müsahibə aparanlar tərəfindən istifadə edilməsi nəzərdə tutulan ssenarinin formalaşdırılması | + |
| 4. | Sorğu anketinin məzmunu ilə bağlı şübhələr və ya suallar olduğu təqdirdə məsələnin Azərbaycan Respublikası Mərkəzi Bankı ilə koordinasiya edilməsi | + |
| 5. | Bütün demoqrafik amillər nəzərə alınmaqla bu sorğunun Azərbaycan əhalisinin tam əhatə olunmasından əmin olmaq üçün təbii seçmə metodologiyasının işlənib hazırlanması | + |
| 6. | Sorğu aparanların treyninqinin təşkil edilməsi və onların müsahibədən əvvəl bütün zəruri məlumatlara malik olmalarına dair əminlik əldə edilməsi | + |
| 7. | Yerlərdə iş aparmaq üçün müsahibə aparanlara bütün zəruri materialların çap edilməsi və çatdırılması | + |
| 8. | Üzbəüz müsahibənin aparılması metodu vasitəsilə respondentlərin evlərində sorğuların keçirilməsi (1200 respondent) | + |
| 9. | Yerində müsahibə aparanların işlərinin monitorinqinin keçirilməsi | + |
| 10. | Yerlərdəki iş nəticəsində ilkin məlumatların toplanması, hazırlanması və müsahiblərin cavabları əsasında təmiz məlumat bazasının formalaşdırılması | + |
| 11. | Sorğu metodologiyasını (Azərbaycan və ingilis dillərində) sənədlərlə dəstəkləyən tam hesabatın təqdim edilməsi | + |
| 12. | Sorğunun nəticəsi əsasında tam təhlili özündə əks etdirən texniki hesabatın işlənib hazırlanması (Azərbaycan və ingilis dillərində) | + |
| 13. | Sorğunun nəticələrini təqdim etmək üçün seminarlarda iştirak edilməsi (bir seminar Bakıda və maksimum iki seminar isə rayon mərkəzlərində) | ±[2] |
| 14. | Layihə komandası tərəfindən müraciət oluna biləcək digər əlaqədar fəaliyyətlər | + |

[1] **"+"** tədbirin uğurla icra olduğunu göstərir; **"-"** tədbirin həyata keçrilmədiyini göstərir.
[2] Yalnız bir seminarda (17 dekabr 2009-cu il tarixdə Bakıda) sorğunun nəticələri təqdim edilmişdir.

Ümumilikdə, Sorğu Bakı (11 inzibati rayon daxil olmaqla), Gəncə, Sumqayıt, Şirvan, Xırdalan, Şəki, Lənkəran, Yevlax, Naxçıvan, Quba, Qusar, Ağsu, Biləsuvar, Bərdə, Tovuz, Masallı şəhərlərini, 2 qəsəbə və 37 kəndi əhatə etmişdir (bax cədvəl 1.1). Sorğuda iştirak edənlərin 54%-i şəhər (Bakı - 23%) və 46%-i kənd ərazilərində yaşayanlar olmuşdur. Bu da ölkədə demoqrafik vəziyyətə uyğun bir göstəricidir.

**Cədvəl 1.1: Respondentlərin yaşayış yerləri və regionlar üzrə bölgüsü**

| # | Şəhər/Rayon | Şəhər yerləri | Kənd yerləri | Ümumi |
|---|---|---|---|---|
| | | *n* | *n* | *n* |
| **I.** 1. **Bakı şəhəri** | | 277 | 0 | 275 |
| **II. Abşeron iqtisadi regionu** | | **105** | **15** | **120** |
| *2.* | *Abşeron* | *45* | *15* | *60* |
| *3.* | *Sumqayıt şəhəri* | *60* | *0* | *60* |
| **III. Quba-Xaçmaz iqtisadi regionu** | | **30** | **60** | **90** |
| *4.* | *Qusar* | *15* | *30* | *45* |
| *5.* | *Quba* | *15* | *30* | *45* |
| **IV. Dağlıq Şirvan iqtisadi regionu** | | **15** | **45** | **60** |
| *6.* | *Ağsu* | *15* | *45* | *60* |
| **V. Şəki-Zaqatala iqtisadi regionu** | | **30** | **60** | **90** |
| *7.* | *Şəki* | *30* | *60* | *90* |
| **VI. Aran iqtisadi regionu** | | **75** | **165** | **240** |
| *8.* | *Biləsuvar* | *15* | *45* | *60* |
| *9.* | *Şirvan şəhəri* | *30* | *0* | *30* |
| *10.* | *Ucar* | *0* | *30* | *30* |
| *11.* | *Yevlax* | *15* | *45* | *60* |
| *12.* | *Bərdə* | *15* | *45* | *60* |
| **VII. Naxçıvan iqtisadi regionu** | | **15** | **45** | **60** |
| *13.* | *Naxçıvan* | *15* | *0* | *15* |
| *14.* | *Babək* | *0* | *15* | *15* |
| *15.* | *Kəngərli* | *0* | *15* | *15* |
| *16.* | *Şərur* | *0* | *15* | *15* |
| **VIII. Gəncə-Qazax iqtisadi regionu** | | **75** | **75** | **150** |
| *17.* | *Gəncə* | *60* | *0* | *60* |
| *18.* | *Tovuz* | *15* | *45* | *60* |
| *19.* | *Xanlar* | *0* | *30* | *30* |
| **IX. Lənkəran iqtisadi regionu** | | **30** | **90** | **120** |
| *20.* | *Lənkəran* | *15* | *45* | *60* |
| *21.* | *Lerik* | *0* | *15* | *15* |
| *22.* | *Masallı* | *15* | *30* | *45* |
| | **CƏMİ** | **652** | **555** | **1207** |
| | ***%-lə*** | ***54,0*** | ***46,0*** | ***100,0*** |

# II. RESPONDENTLƏRİN SOSİAL-DEMOQRAFİK XARAKTERİSTİKASI

Aşağıdakı cədvəl göstərir ki, sorğuda iştirak edənlərin 52%-i kişi və 48%-i qadınlar olmuşdur. Paytaxt yerlərində sorğuda iştirak edənlər arasında qadınlar nisbətən üstünlük təşkil etsə də, kənd və digər şəhər ərazilərində bu göstərici əksinə olmuşdur. Respondentlərin yaş bölgüsü göstərir ki, sorğuda iştirak edənlərin əksəriyyəti (67%) 26-55 yaşlarında olanlar olmuşdur. Sorğuda kənd yerlərində gənclər daha az iştirak etmiş və yaşlılar üstünlük təşkil etmişdir. Bu gənclərin paytaxt və digər iri şəhərlərdə ali məktəblərdə oxuması, hərbi qulluqda olması və digər yerlərə işləmək üçün miqrasiya etməsi ilə birbaşa əlaqəlidir.

Sorğuda iştirak edənlərin əksəriyyəti ET-nin başçısı, həyat yoldaşı və ya övlad olmuşdur. Ailənin orta ölçüsü 4,4 nəfər təşkil etmişdir ki, bu da ölkə üzrə statistik göstəriciyə uyğundur. Kənd yerlərində ailələrin orta ölçüsü 4,7 nəfər və Bakıda 4 nəfər təşkil etmişdir. Qadın respondentlərin təmsil etdiyi ailələrin ölçüsü kişi respondentlərin təmsil etdiyi ailələrə nisbətən kiçik olmuşdur: müvafiq olaraq: 4,2 və 4,6. Sorğuda iştirak edənlərin 5%-i məcburi köçkün və 95%-i yerli əhali olmuşdur. Məcburi köçkünlər əsasən Bakı və digər şəhərlərdə məskunlaşanlar olmuşdur.

Sorğuda iştirak edən respondentlərin 45%-nin təhsili ümumi orta təhsil olmuş və bu göstərici kənd yerlərində 55% təşkil etmişdir. Ali təhsillilər arasında kişilər üstünlük təşkil edirlər. Bu da ölkə üzrə mövcud statistik göstəriciyə uyğundur.

Sorğuda iştirak edənlərin əksəriyyəti dövlət və özəl sektorda işləyənlər, özünüməşğullar, təqaüdçülər, evdar xanımlar və işsizlər olmuşdur. Respondentlərin 8,4%-i işsiz olmasını qeyd etmiş və aktiv sürətdə iş axdardıqlarını vurğulamışlar. Qeyd etmək lazımdır ki, DSK-nın 2008-ci il üzrə məlumatlarına görə ölkədə işsizlik 6,1% olmuşdur (daha geniş məlumat üçün cədvəl 2.1-ə baxın).

**Cədvəl 2.1: Respondentlərin sosial-demoqrafik statusu**

| | **Paytaxt** | | **Digər şəhər yeri** | | **Kənd yeri** | | **Ümumi** | | ***Ümumi-Kişi*** | | ***Ümumi-Qadın*** | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **n** | **%** | **n** | **%** | **n** | **%** | **n** | **%** | ***n*** | ***%*** | ***n*** | ***%*** |
| **Cəmi** | **277** | **22,9** | **375** | **31,1** | **555** | **46,0** | **1 207** | **100** | ***624*** | ***51,7*** | ***583*** | ***48,3*** |
| | | | | | | | | | | | | |
| **Yaşı** | | | | | | | | | | | | |
| 18-25 yaş | 64 | 23,1 | 69 | 18,4 | 50 | 9 | 183 | 15,2 | *90* | *14,4* | *93* | *16* |
| 26-35 yaş | 69 | 24,9 | 75 | 20 | 106 | 19,1 | 250 | 20,7 | *135* | *21,6* | *115* | *19,7* |
| 36-45 yaş | 61 | 22 | 73 | 19,5 | 148 | 26,7 | 282 | 23,4 | *142* | *22,8* | *140* | *24* |
| 46-55 yaş | 58 | 20,9 | 83 | 22,1 | 140 | 25,2 | 281 | 23,3 | *144* | *23,1* | *137* | *23,5* |
| 56-65 yaş | 16 | 5,8 | 48 | 12,8 | 64 | 11,5 | 128 | 10,6 | *64* | *10,3* | *64* | *11* |
| 65 və daha cox | 9 | 3,2 | 27 | 7,2 | 47 | 8,5 | 83 | 6,9 | *49* | *7,9* | *34* | *5,8* |
| **Cəmi** | **277** | **100** | **375** | **100** | **555** | **100** | **1 207** | **100** | ***624*** | ***100*** | ***583*** | ***100*** |
| | | | | | | | | | | | | |
| **Statusu** | | | | | | | | | | | | |
| Yerli sakin | 247 | 89,2 | 347 | 92,5 | 550 | 99,1 | 1 144 | 94,8 | *604* | *96,8* | *540* | *92,6* |
| Məcburi köçkun | 30 | 10,8 | 28 | 7,5 | 5 | 0,9 | 63 | 5,2 | *20* | *3,2* | *43* | *7,4* |
| **Cəmi** | **277** | **100** | **375** | **100** | **555** | **100** | **1 207** | **100** | ***624*** | ***100*** | ***583*** | ***100*** |
| | | | | | | | | | | | | |
| **Ev təsərrüfatının başçısı ilə qohumluq əlaqəsi** | | | | | | | | | | | | |
| Başçı | 105 | 37,9 | 164 | 43,7 | 276 | 49,7 | 545 | 45,2 | *425* | *68,1* | *120* | *20,6* |
| Ər/Arvad | 98 | 35,4 | 97 | 25,9 | 145 | 26,1 | 340 | 28,2 | *7* | *1,1* | *333* | *57,1* |
| Övlad | 73 | 26,4 | 102 | 27,2 | 102 | 18,4 | 277 | 22,9 | *189* | *30,3* | *88* | *15,1* |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kürəkən/Gəlin | 1 | 0,4 | 11 | 2,9 | 28 | 5 | 40 | 3,3 | *1* | *0,2* | *39* | *6,7* |
| Digər | 0 | 0 | 1 | 0,3 | 4 | 0,8 | 5 | 0,5 | *2* | *0,3* | *3* | *0,5* |
| **Cəmi** | **277** | **100** | **375** | **100** | **555** | **100** | **1 207** | **100** | ***624*** | ***100*** | ***583*** | ***100*** |
| | | | | | | | | | | | | |
| **Təhsili** | | | | | | | | | | | | |
| Ali təhsil | 138 | 49,8 | 101 | 26,9 | 89 | 16 | 328 | 27,2 | *199* | *31,9* | *129* | *22,1* |
| Orta ixtisas – texnikum, kollec | 58 | 20,9 | 71 | 18,9 | 80 | 14,4 | 209 | 17,3 | *95* | *15,2* | *114* | *19,6* |
| Texniki-peşə | 3 | 1,1 | 18 | 4,8 | 28 | 5 | 49 | 4,1 | *34* | *5,4* | *15* | *2,6* |
| Ümumi orta təhsil | 76 | 27,4 | 165 | 44 | 305 | 55 | 546 | 45,2 | *271* | *43,4* | *275* | *47,2* |
| Natamam orta təhsil | 1 | 0,4 | 13 | 3,5 | 33 | 5,9 | 47 | 3,9 | *18* | *2,9* | *29* | *5* |
| İbtidai təhsil | 0 | 0 | 7 | 1,9 | 16 | 2,9 | 23 | 1,9 | *4* | *0,6* | *19* | *3,3* |
| Təhsili yoxdur | 1 | 0,4 | 0 | 0 | 4 | 0,7 | 5 | 0,4 | *3* | *0,5* | *2* | *0,3* |
| **Cəmi** | **277** | **100** | **375** | **100** | **555** | **100** | **1 207** | **100** | ***624*** | ***100*** | ***583*** | ***100*** |
| | | | | | | | | | | | | |
| **Məşğuliyyəti** | | | | | | | | | | | | |
| Dövlət sektorunda işləyən | 63 | 22,7 | 82 | 21,9 | 118 | 21,3 | 263 | 21,8 | *144* | *23,1* | *119* | *20,4* |
| Evdar xanım | 63 | 22,7 | 55 | 14,7 | 90 | 16,2 | 208 | 17,2 | *77* | *12,3* | *19* | *3,3* |
| Pensiyaçı / Təqaüdçü | 34 | 12,3 | 71 | 18,9 | 103 | 18,6 | 208 | 17,2 | *19* | *3* | *5* | *0,9* |
| Öz hesabına işləyən/ özünüməşğul | 18 | 6,5 | 50 | 13,3 | 107 | 19,3 | 175 | 14,5 | *25* | *4* | *7* | *1,2* |
| İşsiz (iş axtarır) | 30 | 10,8 | 28 | 7,5 | 43 | 7,7 | 101 | 8,4 | *151* | *24,2* | *24* | *4,1* |
| Özəl sektorda işləyən | 35 | 12,6 | 39 | 10,4 | 22 | 4 | 96 | 8 | *14* | *2,2* | *1* | *0,2* |
| Tələbə | 20 | 7,2 | 21 | 5,6 | 1 | 0,2 | 42 | 3,5 | *12* | *1,9* | *13* | *2,2* |
| Sahibkar | 3 | 1,1 | 16 | 4,3 | 13 | 2,3 | 32 | 2,7 | *0* | *0* | *208* | *35,7* |
| Ödənişsiz ailə əməyi (ferma və məişət işlərində kömək edir) ilə məşğul olan | 0 | 0 | 1 | 0,3 | 24 | 4,3 | 25 | 2,1 | *20* | *3,2* | *22* | *3,8* |
| Qeyri-hökumət təşkilatında işləyən | 5 | 1,8 | 4 | 1,1 | 15 | 2,7 | 24 | 2 | *92* | *14,7* | *116* | *19,9* |
| İşsiz (iş axtarmır) | 4 | 1,4 | 4 | 1,1 | 10 | 1,8 | 18 | 1,5 | *59* | *9,5* | *42* | *7,2* |
| Daimi olmayan işlərdə işləyən/ mövsümi | 2 | 0,7 | 4 | 1,1 | 9 | 1,6 | 15 | 1,2 | *11* | *1,8* | *7* | *1,2* |
| **Cəmi** | **277** | **100** | **375** | **100** | **555** | **100** | **1 207** | **100** | ***624*** | ***100*** | ***583*** | ***100*** |
| | | | | | | | | | | | | |
| **Ailənin orta ölçüsü (n)** | **4,03** | | **4,18** | | **4,75** | | **4,41** | | ***4,6*** | | ***4,2*** | |

Mənbə: MSS

**Diaqram 2.2: Respondentlərin əsas işində aylıq əmək haqqı/ qazancı, %-lə**




Mənbə: MSS

Diaqram 2.2 göstərir ki, respondentlər arasında əsas gəlir mənbəyi üzrə orta əmək haqqı/qazanc 220 manat civarındadır. Bu göstərici Bakıda ən yüksək və kənd yerlərində ən aşağı səviyyədədir. Respondentlər arasında evdar xanım, işsiz və s. kateqoriyalara mənsub olub və gəliri olmayanlar 30% təşkil etmişdir. Bu göstərici paytaxtda ən yüksək və digər şəhər yerlərində ən aşağı səviyyədə olmuşdur. Bu da paytaxtda nisbətən daha çox sayda evdar xanımların, işsizlərin və tələbələrin sorğuda iştirak etməsi ilə bağlıdır. Respondentlərin yalnız 1,7%-i əsas gəlir mənbələri haqqında məlumat

verməmişlər.

Diaqram 2.2 göstərir ki, respondentlərin əksəriyyəti (54%) özlərinin maliyyə durumunu orta qiymətləndirmişlər və bu göstərici Bakıda daha yüksək və kənd yerlərində isə ən aşağı olmuşdur. Bu ölkədə mövcud olan tendensiyaya uyğun olsa da subyektiv qiymətləndirmədir və real vəziyyəti tam əks etdirməyə bilər. Lakin, bu respondentlərin özlərinin maliyyə durumunu hansı səviyyədə qiymətləndirməyi təsəvvür etməyə imkan verir.

**Diaqram 2.2: Respondentlərin ET-lərinin maliyyə durumu (subyektiv qiymətləndirmə), %-lə**




Mənbə: MSS

# III. MALIYYƏ SAVADLILIĞI ÜZRƏ MÖVCUD VƏZIYYƏT

## 3.1. Maliyyə idarəetməsi və borclanma

Diaqram 3.1.1 göstərir ki, əksər respondentlərin ailələri (70%) gəlir və xərclərin qeydiyyatını aparmır və onların 35%-i son bir ayda nə qədər vəsait xərclənməsini belə xatırlaya bilmir. Bu göstərici digər şəhər yerlərində daha yüksəkdir.

Diaqram 3.1.2 göstərir ki, ev təsərrüfatı başçısı qadın olan ev təsərrüfatları (76%) gəlir və xərclərin qeydiyyatını aparmır və onların 35%-i son bir ayda nə qədər vəsait xərclənməsini belə xatırlaya bilmir. Bu göstərici ailə başçısı qadın olan ET-lərdə kişilərə nisbətən yüksəkdir.

**Diaqram 3.1.1: ET-lərdə gəlir və xərclərin qeydiyyatı, %-lə**




Mənbə: MSS

**Diaqram 3.1.2: ET başçısına görə ET-lərdə gəlir və xərclərin qeydiyyatı, %-lə**




Mənbə: MSS

Diaqram 3.1.3 göstərir ki, sonuncu il ərzində əksər respondentlərin ailələri (52%) növbəti gəlirədək (əmək haqqı, pensiya, təqaüd, müavinət və s.) əvvəlki qazancın müəyyən hissəsini qənaət edə bilmirlər və bu göstərici kənd yerlərində daha yüksəkdir, yalnız 35%-i bunu bəzən və nadir hallarda edə bilirlər.

Ev təsərrüfatlarının növbəti gəlirədək qənaət edilmiş pulu olanda onlar adətən bu vəsaiti istehlak mallarının alınmasına sərf edirlər və ya nağd pul formasında evdə saxlayırlar. Qənaət edilmiş pulu istehlak mallarına xərcləyənlərin nisbəti kənd yerlərində və nağd pul formasında saxlayanların nisbəti isə Bakıda daha çoxdur. Bu da kənd yerlərində həyat şəraitinin paytaxta nisbətən aşağı olması ilə izah oluna bilər. Ümumilikdə, qənaət edilmiş pulun şəxsi biznesə sərmayə kimi yatırılması və əmanət kimi banklarda saxlanılmasına dair rəylər aşağı səviyyədədir.

**Diaqram 3.1.3: Sonuncu il ərzində ET-lərdə novbəti gəlirədək əvvəlki gəlirdən qənaət edənlər, %-lə**




Mənbə: MSS

**Diaqram 3.1.4: Qənaət edilmiş vəsaitin xərclənməsi, %-lə**




Mənbə: MSS

Diaqram 3.1.5 göstərir ki, respondentlərin əksəriyyəti (52%) sonuncu il ərzində onların vəsaitinin yeni gəlir daxil olmazdan əvvəl qutarmasını qeyd etmişlər. Belə hallar kənd yerlərində daha tez-tez baş verir.

Diaqram 3.1.6 göstərir ki, ev təsərrüfatının pulu növbəti gəlirdən əvvəl qurtaranda onların əksəriyyəti xərclərini azaldır və ya qənaət edirlər, habelə qohumlardan, dostlardan və tanışlardan borc və ya əvəzsiz pul alırlar. Sözügedən vasitələrdən paytaxtda yaşayanlar nisbətən daha çox istifadə edirlər. Kənd yerlərində və digər şəhər yerlərində mağazadan nisyə mal almaq (23% və 20%) və kənd təsərrüfatı məhsullarını satmaq (13% yalnız kənd yerlərində) daha geniş yayılmışdır.

**Diaqram 3.1.5: Sonuncu il ərzində vəsaitləri yeni gəlir daxil olmazdan əvvəl qutaran ET-lər, %-lə**




Mənbə: MSS

**Diaqram 3.1.6: Növbəti gəlirdən əvvəl vəsait qurtaranda ET-lərin davranışları, %-lə**




Mənbə: MSS

Diaqram 3.1.7 göstərir ki, respondentlərin əksəriyyəti (56%) son 3 ildə gəlirlərinin azalmadığını bildirmişlər. Bu göstərici digər şəhər yerlərində (60%) daha yüksək və Bakıda ən aşağı olmuşdur (53%). Ev təsərrüfatlarının 45%-də bədbəxt hadisələr, iş yerlərinin itirilməsi və s. səbəblərdən gəlirlərdə azalmalar baş vermişdir. Bu göstərici Bakıda ən yüksək və digər şəhər yerlərində ən aşağı müşahidə edilmişdir.

Təhlil göstərir ki, paytaxtda əhalinin gəlirlərinin son illər aşağı düşməsi əsasən, qazanc gətirənin işini itirməsi və əmək haqqının aşağı düşməsi ilə əlaqədardır (28%). Bu 2008-ci ilin sonlarında dünyada baş verən maliyyə böhranın paytaxt sakinlərinin gəlirlərinin azalmasına təsir etdiyini ehtimal etməyə əsas verir.

**Diaqram 3.1.7: Son 3 il ərzində ET-lərin gəlirlərində əhəmiyyətli azalmaların səbəbləri, %-lə** *(n.a.o – nəticəsində azalma olub)*




Mənbə: MSS

Diaqram 3.1.8 göstərir ki, son il ərzində ev təsərrüfatlarının əksəriyyəti (72%) hər hansı bir səbəbdən borc almışlar. Ümumilikdə borc götürənlər arasında kənd yerlərində yaşayanlar nisbətən üstünlük təşkil edirlər və paytaxt sakinləri arasında bu göstərici nisbətən aşağıdır.

Diaqram 3.1.9 göstərir ki, sorğu aparılan dövrdə respondentlərin 48%-i onların təmsil etdiyi ET-lərin borcu olduğunu qeyd etmişlər. Bu göstərici kənd yerlərində ən yüksək (49%) və digər şəhər yerlərində ən aşağı (44%) olmuşdur.

**Diaqram 3.1.8: Son il ərzində borc almış ET-lər, %-lə**




Mənbə: MSS

**Diaqram 3.1.9: Hazırda borcu olan ET-lər, %-lə**




Mənbə: MSS

Diaqram 3.1.10 göstərir ki, daşınmaz əmlak (mənzil, bağ evi və s.) və avtomobilin alınması üçün götürülmüş kreditlər nəzərə alınmadan ev təsərrüfatlarının borcu əsasən onların 1-6 aylıq (77%) gəlirləri həcmindədir. Təhlil göstərir ki, kənd yerlərində və digər şəhər yerlərində yaşayanların borcları onların aylıq gəlirləri ilə müqayisədə paytaxtda yaşayanlara nisbətən azdır. Bu fakt paytaxt sakinlərinin daha çox iri həcmli borcların götürdüyünü göstərir. Eyni zamanda, bu göstərici paytaxt sakinlərinin maliyyə xidmətlərinə daha çox çıxış imkanlarının olmasını göstərir.

**Diaqram 3.1.10: Hazırda ET-lərin borcunun həcmi** *(daşınmaz əmlakın və avtomobilin alınması üçün götürülmüş kreditlər nəzərə alınmadan), %-lə*




Mənbə: MSS

Diaqram 3.1.11 göstərir ki, sorğuda iştirak edən respondentlərin 43%-i qeyd etmişlər ki, onların əvvəllər nisbətən imkanlı dostları, tanışları arasında sonralar gözlənilməz maliyyə problemləri ilə qarşılaşanlar olmuşlar. 25%-nin fikrincə bunun səbəbi ardıcıl baş verən bədbəxt hadisələr, 18%-nin fikrincə isə buna səbəb vəsaitlərin düzgün idarə edilməməsi olmuşdur. Vəsaitlərin düzgün idarə edilməməsi faktlarını digər şəhər yerlərində və kənd yerlərində yaşayanlar nisbətən çox vurğulamışlar (20% və 19%). Eyni zamanda, 1% civarında respondent digər cavab variantında buna səbəb kimi iqtisadi böhran və aldadılma hallarını qeyd etmişlər.

**Diaqram 3.1.11: Respondentlərin dostları, tanışları arasında əvvəllər nisbətən imkanlı olub, sonra gözlənilməz maliyyə problemləri ilə qarşılaşan ailələr və onun səbəbləri, %-lə**




Mənbə: MSS

Beləliklə, sorğunun nəticələri təsdiqləyir ki, kənd və digər şəhər yerlərində daha çox insanlar pulun düzgün idarə edilməməsi və planlaşdırmaq problemləri vardır. Bu isə birbaşa olaraq sözügedən regionlarda insanların təhsil səviyyəsinin paytaxtla müqayisədə aşağı səviyyədə olması və elementar riyazi maliyyə savadının olmaması ilə əlaqədar ola bilər.

## 3.2. Maliyyə məlumatlılığı və istehlakçı hüquqları

Diaqram 3.2.1-dən göründüyü kimi, respondentlərin əksəriyyətinin əmanətlərin sığortalanması ilə bağlı məlumatı yoxdur, yalnız onların kiçik bir hissəsi bu haqda məlumatlıdır (6%). Yaşayış yerlərinə görə ən aşağı göstərici kənd yerlərində müşahidə edilir (4%). Eyni zamanda məlumatlılıq səviyyəsi kişilərə nisbətən qadınlar arasında daha aşağıdır (8% və 3%).

**Diaqram 3.2.1: Banklarda əmanətlərin maksimum sığortalanan məbləği haqqında respondentlərin məlumatlılığı, %-lə**




Mənbə: MSS

Diaqram 3.2.2 göstərir ki, respondentlərin fikrincə banklar iflasa uğradığı zaman hökumət yaranan itkilərə görə fərdi şəxslərə kompensasiya verməlidir (51%). Belə fikirləri paytaxtda yaşayanlar (70%) və qadın respondentlər (56%) daha çox vurğulamışlar. Eyni zamanda paytaxtda yaşayan respondentlərin 43% hesab edir ki, mənzil, yaxud bağ evini satmaq zərurəti yaranarkən onların qiymətlərinin aşağı düşdüyü zaman hökumət tərəfindən kompensasiya verilməlidir. Belə hesab edənlər arasında kişilər qadınlara nisbətən üstünlük təşkil edirlər. Respondentlərin kiçik bir hissəsi (15%) fikirləşir ki, özəl şirkətin səhmləri və səhmlərin dəyəri əhəmiyyətli dərəcədə aşağı düşdüyü zaman hökumət kompensasiya ödəməlidir. Bu fikri dəstəkləyənlər arasında paytaxt sakinləri, gender baxımından isə kişilər üstünlük təşkil edirlər.

**Diaqram 3.2.2: Yaranan itkilərə görə fərdi şəxslərə hökumət tərəfindən kompensasiya verilməsi ilə bağlı respondentlərin münasib hesab etdiyi hallar, %-lə**




Mənbə: MSS

**Diaqram 3.2.3: Qanunvericiliyə görə bank krediti verilərkən kreditin müddəti, illik faiz dərəcəsi, komisyon haqlar və digər şərtlərin kim tərəfindən müəyyən edilməsi ilə bağlı respondentlərin cavabları, %-lə**




Mənbə: MSS

Diaqram 3.2.3 göstərir ki, qanunvericiliyə görə bank krediti verilərkən kreditin müddəti, illik faiz dərəcəsi, komisyon haqlar və digər şərtlərin kim tərəfindən müəyyən edilməsi ilə bağlı respondentlərin 53% məlumatlıdır. Yaşayış yerləri üzrə paytaxtda məlumatlılıq səviyyəsi regionlara nisbətən 25% yuxarıdır: müvafiq olaraq 72% və 47%. Gender baxımından kişilər arasında məlumatlılıq səviyyəsi qadınlara nisbətən 13% yüksəkdir: müvafiq olaraq 58.8% və 46.3%.

Diaqram 3.2.4 göstərir ki, respondentlərin əksəriyyətinin həyatı sığorta edilməmişdir (97%) və onların nəzərəçarpacaq hissəsi sığorta təşkilatlarına inammadığını bildirmişlər (35%). Belə fikirlər kişilər tərəfindən nisbətən çox vurğulanmışdır (36%).

Respondentlərin 29%-i hesab edir ki, hazırda onların həyatını sığorta etmək lazım deyil. Bu göstərici kənd yerlərində ən yüksək və paytaxtda ən aşağıdır: müvafiq olaraq 33% və 17%. Gender baxımından kişilər arasında bu cür düşünənlərin nisbəti qadınlara nisbətən daha çoxdur: müvafiq olaraq 30% və 28%.

**Diaqram 3.2.4: Respondentlərin şəxsi həyat sığortasına dair baxışları, %-lə**




Mənbə: MSS

Respondentlərin 16%-i həyatlarını sığortalamaq istəyirlər lakin, bunun çox baha olmasını qeyd etmişlər. Kənd yerlərində yaşayanların 19%-i və paytaxtda yaşayanların 12%-i bu fikri bildirmişlər. Gender baxımından kişilərin 18%-i və qadınları isə 14%-i bu fikri qeyd etmişlər.

Respondentlərin yalnız 3,1%-nin sığortası vardır və bu göstərici paytaxtda ən yüksək (7,9%) və kənd yerlərində ən aşağıdır (0,2%). Gender baxımından bu göstərici kişilər arasında 3,4% qadınlar arasında isə 2,9% təşkil edir.

Diaqram 3.2.5 göstərir ki, respondentlərin 71%-i ən azı bir maliyyə məlumatını izləyirlər (29%-i isə heç bir maliyyə məlumatını izləmir). Onlar əsasən neftin, qızılın, metalın qiymətlərindəki dəyişikləri (50%); infilyasiya dərəcəsində dəyişiklikləri (37%); pensiyaların səviyyəsində, gəlirlərdə və vergidən azad olma hallarında dəyişiklikləri

**Diaqram 3.2.5: Respondentlər tərəfindən izlənilən məlumatlar, %-lə**




Mənbə: MSS

(35%) izləyirlər. Respondentlərin yalnız 22%-i kreditlər üzrə faiz dərəcəsindəki dəyişiklikləri və 15%-i əmanətlər üzrə faiz dərəcəsindəki dəyişiklikləri izləyirlər.

Yaşayış yerləri üzrə paytaxtda yaşayanların 84%-i və kənd yerlərində yaşayanların 65%-i ən azı bir maliyyə məlumatını izləyir. Gender baxımından bu göstərici kişilər arasında 80% və qadınlar arasında 62% təşkil edir. Qeyd etmək yerinə düşər ki, paytaxtda yaşayan respondentlər kapital bazarında qiymətlərin və indekslərin dəyişməsi istisina olmaqla digər məlumatları aktiv surətdə izləyirlər. Lakin digər şəhər və kənd yerlərində yaşayanlar əsasən qızıl, infilyasiya, pensiya, vergi ilə bağlı məlumatları daha çox izləyirlər. Gender baxımından kişi respondentlər yuxarıda sadalanan bütün növ maliyyə məlumatlarının izlənməsində qadınlardan nəzərəçarpacaq dərəcədə fəaldırlar.

Diaqram 3.2.6 göstərir ki, maliyyə məlumatlarını izləyən respondentlərin böyük əksəriyyəti bu məlumatları əsasən TV proqramlardan, qəzetlərdən və jurnallardan izləyirlər (91%). Eyni zamanda, dostlar/tanışlar və elanlar/reklamlardan da nəzərəçarpacaq dərəcədə istifadə edilir: müvafiq olaraq 35% və 26%. Yaşayış yerləri üzrə ixtisaslaşmış internet saytlarından paytaxt sakinləri daha çox istifadə edirlər (17%). Məlumatları izləyən kişi və qadınları müqayisə etdikdə görürük ki, qadınlar maliyyə məlumatlarını kişilərə nisbətən TV proqramlardan, qəzetlərdən və jurnallardan daha çox izləyirlər. Digər vasitələrin istifadəsində isə kişilər daha çox aktivdirlər.

**Diaqram 3.2.6: Məlumatların əldə edilməsi üçün istifadə edilən mənbələr, %-lə**




Mənbə: MSS

Diaqram 3.2.7 göstərir ki, respondentlərin yalnız 4.4% bildirmişdir ki, onlar son 5 ildə maliyyə xidmətindən istifadə zamanı məmnun qalmamışlar. Belə hallar digər şəhər və kənd yerlərində yaşayan respondentlər tərəfindən daha çox vurğulanmışdır. Diaqram 3.2.8 göstərir ki, respondentlərin narazılığı əsasən istehlak krediti (28%), bank əmanəti (13%), biznes krediti (11%), maşın krediti (9,4%) və bank kredit kartı (9,4%) götürülən zaman yaranmışdır.

**Diaqram 3.2.7: Son 5 ildə maliyyə xidmətindən istifadə zamanı narazı qalanlar, %-lə**




Mənbə: MSS

**Diaqram 3.2.8: Respondentlərin narazı qaldığı maliyyə xidmətləri, %-lə**




Mənbə: MSS

Diaqram 3.2.9 göstərir ki, narazılıqlar yaranan zaman respondentlərin əksəriyyəti (81%) heç nə etməmişdir, yalnız onların kiçik bir hissəsi (15%) aidiyyəti dövlət orqanlarına şikayət təqdim etmiş və ya müqaviləni vaxtından əvvəl dayandırmışlar. Bu da respondentlərin narazılıqlar yaranan zaman öz hüquqlarının təmin edilməsi istiqamətində passiv olması və ya hüquqları haqqında məlumatlı olmamasını göstərir.

**Diaqram 3.2.9: Narazı respondentlərin davranışları, %-lə**




Mənbə: MSS

Diaqram 3.2.10 göstərir ki, respondentlərin nəzərəçarpacaq hissəsi (36%) bildirmişlər ki, əgər onunla maliyyə xidmətləri göstərən təşkilatlar (bank, sığorta şirkəti və s. bu kimi) arasında münaqişə baş verərsə, onun tez və ədalətli həll olunacağına əmin deyillər. Bu cür fikir söyləyənlər Bakıda yaşayanlar arasında üstünlük təşkil etmiş və kişilər arasında əminsizlik qadınlara nisbətən yüksək müşahidə edilir.

**Diaqram 3.2.10: Respondentlərin maliyyə xidmətləri göstərən təşkilatlar (bank, sığorta şirkəti və s.) ilə münaqişələri baş verdikdə, onun tez və ədalətli həll olunacağına əminlikləri, %-lə**




Mənbə: MSS

## 3.3. Riyazi maliyyə savadı

Diaqram 3.3.1 göstərir ki, respondentlərin nəzərəçarpacaq hissəsi (44%) özlərinin maliyyə savadını orta qiymətləndirmişlər. Bu göstərici Bakıda (61%) daha yüksək və kənd yerlərində (37%) ən aşağı qeyd edilmişdir. Qadınlara nisbətən kişilərin daha çox hissəsi maliyyə savadını orta qiymətləndirmişlər: müvafiq olaraq 49% və 39%. Təbii ki, bu subyektiv qiymətləndirmədir və real vəziyyəti tam əks etdirməyə bilər. Lakin, respondentlərin özlərinin maliyyə savadını necə qiymətləndirməyi müşahidə etməyə imkan verir.

Elementar riyazi maliyyə savadının təhlili göstərir ki, orta hesabla respondentlərin 55%-i suallara düzgün cavab vermişlər (diaqram 3.3.2), 45%-i isə yanlış və ya cavab verə bilməmişlər. Yaşayış yerləri üzrə Bakıda yaşayanlar arasında düzgün cavab verənlərin nisbəti ən yüksək və kənd yerlərində yaşayanlar arasında ən aşağı olmuşdur: müvafiq olaraq 64% və 48%. Kişilərin 59%-i suala düzgün cavab verdiyi halda qadınların yalnız 51%-i düzgün cavab vermişdir.

İqtisadi regionlar üzrə ən çox düzgün cavab verənlər Bakıda və ən az düzgün cavab verənlər isə Şəki-Zaqatalada (41%) qeyd edilmişdir (bax cədvəl 3.3.1).

Tədqiqat göstərir ki, respondentlərin təxminən yarısının elementar riyazi maliyyə savadı yoxdur, yəni onlar kreditə/əmanətə görə faizin hesablanması, əmanətdən əldə edilmiş gəlirin infilyasiya ilə müqayisəsi, müxtəlif formalı endirimlərin/güzəştlərin müqayisəsi,

**Diaqram 3.3.1: 5 ballıq şkala ilə respondentlər tərəfindən özlərinin maliyyə savadının qiymətləndirilməsi, %-lə** *(subyektiv qiymətləndirmə)*




Mənbə: MSS

**Diaqram 3.3.2: Respondentlərin elementar riyazi maliyyə savadı** *(orta göstərici)*, **%-lə**




Mənbə: MSS

**Cədvəl 3.3.1: İqtisadi regionlar üzrə elementar riyazi maliyyə savadı,** *(ortalama)*, **%-lə**




Mənbə: MSS

əlavə ödənilmiş vəsaitin əsas vəsaitə görə faizə çevrilməsi və s. bu kimi gündəlik rastlaşdıqları hesablamaları apara bilmirlər. Bu sahədə vəziyyət kənd yerlərində və qadınlar arasında daha ağırdır. Gələcəkdə elementar riyazi maliyyə savadının artırılması ilə bağlı tədbirlərin daha çox kənd yerlərində və qadınlara ünvanlandırılması məqsədəuyğun olardı.

Respondentlərin fikrincə kredit götürülən zaman və əmanət qoyulan zaman bankı seçmək üçün ilk növbədə i) bankın imici/reputasiyası və onun etibarlılığına (59%); və ii) kredit/əmanət üzrə faiz dərəcəsi və kredit xərclərinə (29%) fikir vermək lazımdır. Nəzərəçarpacaq fakt ondan ibarətdir ki, paytaxtda yaşayan respondentlər bankın imici/reputasiyası və onun etibarlılığına daha çox üstünlük verirlər (71%) və bu fikir qadınlar arasında daha çox səslənmişdir (60%) (bax diaqram 3.3.3).

**Diaqram 3.3.3: Respondentlərin fikrincə kredit götürülən zaman və ya əmanət qoyulan zaman bankı seçmək üçün bankları müqayisə edərkən ilk növbədə aşağıdakılara fikir verilməlidir, %-lə**




Mənbə: MSS

Cədvəl 3.3.2 göstərir ki, respondentlər kreditlə mal almağı o zaman doğru hesab edirlər ki: i) əgər mağazada ona lazım olan mallar üçün endirimlər varsa (47%) və ii) əgər kredit üzrə faiz dərəcəsi əmanət üzrə faiz dərəcəsindən yüksəkdirsə (17%). Birinci fikr kənd yerlərində yaşayanlar arasında daha çox səslənmiş (56%) və paytaxtda yaşayanlar arasında daha az səslənmişdir (22%). İkinci fikir isə daha çox digər şəhər yerlərində yaşayanlar tərəfindən qeyd edilmişdir (21%). Gender baxımından kişilər arasında hər iki fikri qeyd edənlər üstünlük təşkil etmişdir.

**Cədvəl 3.3.2: Respondentlər aşağıdıakı hallarda kreditlə mal almağı doğru hesab edirlər, %-lə**

| | **Paytaxt** | **Digər şəhər yeri** | **Kənd yeri** | **Ümumi** | ***Ümumi-Kişi*** | ***Ümumi-Qadın*** |
|---|---|---|---|---|---|---|
| Əgər mağazada mənə lazım olan mallar üçün endirimlər varsa | 21,7 | 52,5 | 55,9 | **47,0** | *49,0* | *44,8* |
| Əgər kredit üzrə faiz dərəcəsi əmanət üzrə faiz dərəcəsindən yüksəkdirsə | 9,0 | 21,1 | 18,0 | **16,9** | *10,1* | *11,5* |
| Əgər kimsə bu vəsaiti yaxşı iş əldə etməyə imkan verən təhsil üçün ödənişə sərf edərsə | 12,6 | 11,2 | 9,5 | **10,8** | *16,5* | *17,3* |
| Əgər bir nəfərə doğrudan da peşə ixtisasını artırmaq lazımdırsa və onun hazırda pulu yoxdursa | 15,2 | 8,8 | 4,1 | **8,1** | *7,7* | *8,6* |
| Ehtiyac olan zaman | 12,6 | 0,8 | 0,5 | **3,4** | *1,9* | *2,9* |
| Cehiz alanda | 8,3 | 1,3 | 0,2 | **2,4** | *0,3* | *0,2* |
| Nağd pul olmayanda | 7,2 | 0,0 | 0,0 | **1,7** | *0,6* | *2,1* |
| Krediti qaytarmağa imkan verən gəliri varsa | 1,8 | 0,3 | 0,2 | **0,6** | *0,3* | *3,1* |
| Üstündə hədiyyə verəndə | 0,7 | 0,0 | 0,2 | **0,2** | *0,0* | *0,2* |
| Əlacsız qalanda | 0,4 | 0,0 | 0,0 | **0,1** | *0,3* | *0,9* |
| ***Kredit götürmək doğru deyil / Heç vaxt*** | ***5,8*** | ***0,0*** | ***0,0*** | ***1,3*** | ***5,0*** | ***1,7*** |
| ***Cavab yoxdur*** | ***4,7*** | ***4,0*** | ***11,4*** | ***7,5*** | ***8,2*** | ***6,9*** |

Respondentlərin fikrincə banklar kredit verərkən ilk növbədə: i) Borcalanın aylıq gəlirlərini və krediti geri qaytarmaq imkanlarını nəzərə alırlar (76%) və ii) Borcalanın maddi vəziyyətini və

onun pul vəsaitinə olan ehtiyacını nəzərə alırlar (56%). Bu fakt göstərir ki, respondentlərin əksəriyyətinin bankların kredit verərkən ilk növbədə nəyə diqqət yetirmələri haqqında məlumatları vardır və bu məlumatlılıq səviyyəsi paytaxtda və kişilər arasında nisbətən yüksəkdir.

**Cədvəl 3.3.3: Respondentlərin fikrincə banklar kreditləri aşağıdakı əsaslarla verirlər, %-lə**

| | Paytaxt | Digər şəhər yeri | Kənd yeri | Ümumi | *Ümumi-Kişi* | *Ümumi-Qadın* |
|---|---|---|---|---|---|---|
| Borcalanın aylıq gəlirlərini və krediti geri qaytarmaq imkanlarını nəzərə almaqla | 75,1 | 77,6 | 74,8 | **75,7** | *79,6* | *71,5* |
| Borcalanın maddi vəziyyətini və onun pul vəsaitinə olan ehtiyacını nəzərə alaraq | 72,9 | 51,2 | 49,9 | **55,6** | *57,5* | *52,5* |
| Kredit müqabilində zəmanət və ya girovun təqdim edilib-edilməməsindən asılı olaraq | 16,6 | 24,5 | 8,5 | **15,3** | *14,6* | *16,1* |
| Müştərilərin müraciəti və növbəlilik əsasında hamıya kredit ayırırlar | 0,0 | 0,3 | 2,0 | **1,0** | *1,1* | *0,9* |
| Bankda qeydiyatda olub-olmaması əsasında | 0,0 | 0,5 | 0,0 | **0,2** | *0,2* | 0,0 |
| Biznes plan əsasında | 0,4 | 0,0 | 0,0 | **0,1** | 0,0 | *0,2* |
| Tanışlıq | 0,0 | 0,3 | 0,0 | **0,1** | *0,2* | *0,2* |
| ***Cavab yoxdur*** | ***2,1*** | ***2,1*** | ***6,7*** | ***4,2*** | ***2,9*** | ***5,7*** |

Respondentlər maliyyə təlimi kurslarında əsasən aşağıdakı mövzuların olmasını arzulamışlar:

1. Kreditdən istifadə edərkən həddindən artıq borclanmamaq üçün nə etmək lazımdır?
2. Pensiya sistemi necə işləyir və vətəndaşlar yaşlandığı zaman gəlirlə təmin edilmənin hansı metodları mövcuddur?
3. Uzun müddətli istehlak mallarının (avtomobil, mənzil, bağ evi) alınması üzrə planı necə qurmaq və onun həyata keçirilməsi imkanlarını qiymətləndirmək?
4. İpoteka kreditləri
5. İstehlakçı hüquqlarını müdafiə edən hansı qanunlar mövcuddur və istehlakçının hüquqları pozularkən nə etmək lazımdır?

Pensiaya sistemi ilə bağlı təlim mövzusu istisina olmaqla digər mövzular ilə kişilər qadınlara nisbətən daha çox maraqlanmışlar.

**Cədvəl 3.3.4: Yaşayış yerləri üzrə fərdi maliyyə idarəçiliyi üzrə respondentlər üçün maraqlı olan təlimi kursları, %-lə**

| | | Paytaxt | Digər şəhər yeri | Kənd yeri | Ümumi | *Ümumi-Kişi* | *Ümumi-Qadın* |
|---|---|---|---|---|---|---|---|
| **1** | **Kreditdən istifadə edərkən həddindən artıq borclanmamaq üçün nə etmək lazımdır** | **60,6** | **34,1** | **28,8** | **37,8** | ***39,4*** | ***36,0*** |
| **2** | **Pensiya sistemi necə işləyir və vətəndaşlar yaşlandığı zaman gəlirlə təmin edilmənin hansı metodları mövcuddur** | **41,2** | **31,5** | **24,1** | **30,3** | ***26,8*** | ***34,1*** |
| **3** | **Uzun müddətli istehlak mallarının (avtomobil, mənzil, bağ evi) alınması üzrə planı necə qurmaq və onun həyata keçirilməsi imkanlarını qiymətləndirmək** | **41,9** | **19,5** | **23,8** | **26,6** | ***28,7*** | ***24,4*** |
| **4** | **İpoteka kreditləri** | **46,2** | **14,9** | **19,5** | **24,2** | ***25,2*** | ***23,2*** |
| **5** | **İstehlakçı hüquqlarını müdafiə edən hansı qanunlar mövcuddur və istehlakçının hüquqları pozularkən nə etmək lazımdır** | **16,2** | **22,7** | **18,0** | **19,1** | ***19,7*** | ***18,4*** |
| 6 | Xidmətlər və mallar almaq üçün istehlak kreditləri | 14,8 | 20,5 | 16,8 | 17,5 | *18,6* | *16,3* |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 7 | Maliyyə hədəflərini necə formalaşdırmaq və cari fərdi maliyyə planı tərtib etmək | 20,2 | 13,6 | 15,3 | 15,9 | *19,7* | *11,8* |
| 8 | Bank xidmətləri: cari hesablar, əmanət və debit/kredit kartları | 24,2 | 17,6 | 6,5 | 14,0 | *15,2* | *12,7* |
| 9 | Banklar və başqa maliyyə təşkilatları tərəfindən təklif olunan xidmətləri müqayisə etmək üçün hansı parametrlərdən istifadə olunur | 20,2 | 13,1 | 6,5 | 11,7 | *13,5* | *9,8* |
| 10 | Maliyyə xidmətləri üzrə informasiya mənbələri, informasiyanı necə şərh etmək və reklam məlumatlarını obyektiv məlumatlardan necə fərqləndirmək | 15,9 | 12,0 | 8,1 | 11,1 | *11,1* | *11,1* |
| 11 | Bank, yaxud başqa maliyyə şirkətləri ilə müqavilə imzalayarkən hansı növ informasiyaya əsasən diqqət yetirilməlidir | 32,1 | 3,7 | 4,0 | 10,4 | *10,3* | *10,5* |
| 12 | Kapital bazarları və birja | 12,6 | 12,3 | 4,3 | 8,7 | *9,5* | *7,9* |
| 13 | Sığorta və sığorta məhsulları | 6,9 | 9,6 | 6,1 | 7,4 | *9,8* | *4,8* |
| 14 | İnternet, Mobil bankinq xidmətlərindən istifadə qaydaları | 4,7 | 5,6 | 2,7 | 4,1 | *6,1* | *1,9* |
| | ***Mən yuxarıdakı mövzuların heç biri ilə maraqlanmıram*** | ***8,3*** | ***24,0*** | ***30,6*** | ***23,4*** | ***18,3*** | ***29,0*** |
| | ***Cavab yoxdur*** | ***0,0*** | ***5,3*** | ***7,9*** | ***5,3*** | ***4,8*** | ***5,8*** |

**Cədvəl 3.3.5: İqtisadi regionlar üzrə fərdi maliyyə idarəçiliyi üzrə respondentlər üçün maraqlı olan təlim kursları, %-lə**

| | **Bakı** | **Abşeron** | **Quba-Xaçmaz** | **Dağlıq Şirvan** | **Şəki-Zaqatala** | **Aran** | **Naxçıvan** | **Gəncə-Qazax** | **Lənkəran** | **Ümumi** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | % | % | % | % | % | % | % | % | % | % |
| Kreditdən istifadə edərkən həddindən artıq borclanmamaq üçün nə etmək lazımdır | 60,6 | 25,8 | 57,8 | 26,7 | 16,7 | 27,1 | 25,0 | 36,7 | 32,5 | **37,8** |
| Pensiya sistemi necə işləyir və vətəndaşlar yaşlandığı zaman gəlirlə təmin edilmənin hansı metodları mövcuddur | 41,2 | 22,5 | 2,2 | 11,7 | 30,0 | 24,2 | 25,0 | 58,7 | 23,3 | **30,3** |
| Uzun müddətli istehlak mallarının (avtomobil, mənzil, bağ evi) alınması üzrə planı necə qurmaq və onun həyata keçirilməsi imkanlarını qiymətləndirmək | 41,9 | 10,0 | 58,9 | 16,7 | 25,6 | 19,6 | 8,3 | 27,3 | 11,7 | **26,6** |
| İpoteka kreditləri | 46,2 | 15,0 | 10,0 | 10,0 | 30,0 | 21,7 | 21,7 | 15,3 | 13,3 | **24,2** |
| İstehlakçı hüquqlarını müdafiə edən hansı qanunlar mövcuddur və istehlakçının hüquqları pozularkən nə etmək lazımdır? | 16,2 | 17,5 | 1,1 | 5,0 | 6,7 | 7,1 | 0,0 | 52,7 | 48,3 | **19,1** |
| Xidmətlər və mallar almaq üçün istehlak kreditləri | 14,8 | 8,3 | 53,3 | 15,0 | 13,3 | 9,6 | 5,0 | 22,7 | 25,8 | **17,5** |
| Maliyyə hədəflərini necə formalaşdırmaq və cari fərdi maliyyə planı tərtib etmək | 20,2 | 38,3 | 3,3 | 3,3 | 12,2 | 17,1 | 30,0 | 0,7 | 11,7 | **15,9** |
| Bank xidmətləri: cari hesablar, əmanət və debit/kredit kartları | 24,2 | 37,5 | 5,6 | 3,3 | 7,8 | 6,3 | 6,7 | 8,7 | 9,2 | **14,0** |
| Banklar və başqa maliyyə təşkilatları tərəfindən təklif olunan xidmətləri müqayisə etmək üçün hansı parametrlərdən istifadə olunur | 20,2 | 18,3 | 10,0 | 5,0 | 13,3 | 12,1 | 1,7 | 0,0 | 7,5 | **11,7** |
| Maliyyə xidmətləri üzrə informasiya mənbələri, informasiyanı necə şərh etmək və reklam məlumatlarını obyektv məlumatlardan necə fərqləndirmək | 15,9 | 19,2 | 2,2 | 1,7 | 25,6 | 10,0 | 21,7 | 2,0 | 0,8 | **11,1** |
| Bank, yaxud başqa maliyyə şirkətləri ilə müqavilə imzalayarkən hansı növ informasiyaya əsasən diqqət yetirilməlidir? | 32,1 | 2,5 | 2,2 | 11,7 | 2,2 | 5,4 | 6,7 | 0,0 | 4,2 | **10,4** |
| Kapital bazarları və birja | 12,6 | 19,2 | 1,1 | 3,3 | 14,4 | 5,8 | 1,7 | 9,3 | 1,7 | **8,7** |
| Sığorta və sığorta məhsulları | 6,9 | 3,3 | 6,7 | 5,0 | 8,9 | 6,3 | 5,0 | 17,3 | 4,2 | **7,4** |
| İnternet, Mobil bankinq xidmətlərindən istifadə qaydaları | 4,7 | 7,5 | 2,2 | 1,7 | 4,4 | 3,3 | 6,7 | 2,0 | 4,2 | **4,1** |
| ***Mən yuxarıdakı mövzuların heç biri ilə maraqlanmıram*** | ***8,3*** | ***29,2*** | ***7,8*** | ***41,7*** | ***20,0*** | ***27,1*** | ***60,0*** | ***23,3*** | ***32,5*** | ***23,4*** |
| ***Cavab yoxdur*** | ***0,0*** | ***2,5*** | ***31,1*** | ***0,0*** | ***0,0*** | ***7,5*** | ***6,7*** | ***6,7*** | ***0,8*** | ***5,3*** |

Respondentlər maliyyə savadlılığının artırılmasında Kütləvi İnformasiya Vasitələrini (49%), iqtisadi və maliyyə sahəsi üzrə ixtisaslaşmış ali təhsil ocaqlarını (25%), müstəqil maliyyə məsləhətçilərini (20%) münasib hesab etmişlər. Yaşayış yerləri üzrə maliyyə savadlılığının artırılmasında iqtisadi və maliyyə sahəsi üzrə ixtisaslaşmış ali təhsil ocaqlarını və müstəqil maliyyə məsləhətçilərini paytaxtda yaşayan respondentlər daha çox münasib hesab etmişlərsə, KİV-i isə digər şəhər yerlərində və kəndlərdə yaşayanlar daha çox münasib hesab etmişlər. Gender baxımından kişilər arasında maliyyə savadlılığının artırılması üçün yuxarıda sadalanan bütün vasitələri münasib hesab edənlərin nisbəti qadınlara nisbətən çox olmuşdur (bax diaqram 3.3.4).

**Diaqram 3.3.4: Maliyyə savadlılığının artırılması üçün münasib hesab edilən təlimçilər, %-lə**




Mənbə: MSS

Respondentlərin fikrincə onlar əlavə vəsait əldə etdiyi halda ilk növbədə onları istehlak mallarına, yəni həyat şəraitinin yaxşılaşdırılmasına sərf edəcəklər. Belə fikirlər qadınlar arasında kişilərə nisbətən daha çox səslənmişdir. Eyni zamanda kişilər qadınlara nisbətən əlavə vəsaitin biznesin inkişafına yönəldəcəklərini qeyd etmişlər. Banka əmanət kimi qoyanların nisbəti isə nəzərəçarpacaq dərəcədə deyil (6%).

**Cədvəl 3.3.6: Daimi gəlirə əlavə olaraq 2000-3000 manat həcmində vəsait əldə edildikdə onun istifadəsi, %-lə**

| | Paytaxt | Digər şəhər yeri | Kənd yeri | Ümumi | *Ümumi-Kişi* | *Ümumi-Qadın* |
|---|---|---|---|---|---|---|
| Ev əşyalarının alınmasına xərcləyərəm (mebel, paltar, elektrik məişət avadanlıqları və s.) | 36,8 | 43,5 | 42,0 | **41,3** | *37,2* | *45,6* |
| Ehtiyat toplayaram ( gözlənilməz hadisələr, xüsusi hallar, qara gün üçün və s.) | 24,5 | 43,5 | 45,6 | **40,1** | *38,0* | *42,4* |
| Özümün və yaxın ailə üzvümün tibbi müalicəsinə sərf edərəm | 14,1 | 24,0 | 29,5 | **24,3** | *23,9* | *24,7* |
| Uşaqlarımın təhsilinə və inkişafına sərf edərəm | 20,9 | 25,3 | 24,7 | **24,0** | *22,3* | *25,9* |
| Çalışaram ki, bu vəsaiti daha da artırım (borc almaq və s. yolla) torpaq sahəsi, maşın və s. alım | 12,3 | 30,1 | 25,2 | **23,8** | *29,8* | *17,3* |
| Şəxsi biznesimə sərmayə qoyaram | 10,8 | 16,8 | 26,7 | **20,0** | *29,2* | *10,1* |
| Borclarımı erkən ödəyərəm | 16,6 | 14,9 | 14,1 | **14,9** | *15,9* | *13,9* |
| Qızıl, qiymətli daş-qaş və bu kimi şeylər alaram | 6,9 | 6,7 | 16,2 | **11,1** | *7,7* | *14,8* |
| Daha bahalı şeylər ( ev, mənzil, bahalı maşın və s.) almaq məqsədilə pul toplamaq üçün uzun müddətli əmanət şəklində evdə saxlayıram | 7,9 | 13,1 | 5,8 | **8,5** | *9,5* | *7,5* |
| Müəyyən faiz dərəcəsinə malik bank əmanətinə yatıraram | 7,9 | 6,1 | 5,2 | **6,1** | *6,3* | *6,0* |
| Bilik və bacarıqların artırılmasına, təlimə və ya yeni bacarıqlar əldə etməyə sərf edərəm | 5,8 | 10,1 | 1,4 | **5,1** | *4,3* | *6,0* |
| Əyləncəyə, səyahətə, yaxud peşə təhsilinə sərf edərəm | 6,5 | 4,3 | 3,4 | **4,4** | *5,3* | *3,4* |
| Geyim / qida alaram | 5,1 | 3,2 | 1,6 | **2,9** | *2,2* | *3,6* |
| Evi təmir edərəm / tikərəm | 4,3 | 1,1 | 3,1 | **2,7** | *1,8* | *3,8* |
| Özümü yaxud ailəmi sığortalayaram | 1,4 | 1,1 | 0,7 | **1,0** | *1,0* | *1,0* |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Azərbaycan şirkətlərinin səhmləri və digər qiymətli kağızlarını və dövlət istiqrazlarını alaram | 0,4 | 1,6 | 0,5 | **0,8** | *1,4* | *0,2* |
| Torpaq alaram | 2,2 | 0,0 | 0,0 | **0,5** | *0,0* | *1,0* |
| Xeyirxah işlərə sərf edərəm | 1,1 | 0,0 | 0,2 | **0,3** | *0,3* | *0,3* |
| Təsərrüfatla məşğul olaram | 0,7 | 0,0 | 1,1 | **0,7** | *0,8* | *0,5* |
| ***Cavab yoxdur*** | ***1,4*** | ***1,3*** | ***2,9*** | ***2,1*** | ***2,1*** | ***2,1*** |

Diaqram 3.3.5 göstərir ki, respondentlərin nəzərəçarpacaq hissəsi (47%) gündəlik gəlirlərini gündəlik ehtiyaclara xərcləyirlər. Bu da respondentlərin maliyyə imkanlarının elə də yaxşı olmamasını göstərir.

Diaqram 3.3.6 göstərir ki, respondentlərin yalnız 22%-i investisiya və ya əmanət qoymuşlar. Bakıda yaşayanlar arasında bu göstərici orta göstəricidən 2 dəfəyə yaxın yüksəkdir, kənd yerlərində isə bu göstərici 11% təşkil edir.

**Diaqram 3.3.5: Gündəlik gəlirlərin idarə edilməsi, %-lə**




Mənbə: MSS

**Diaqram 3.3.6: İnvestisiya yatırmaq və ya əmanət saxlama halları, %-lə**




Mənbə: MSS

Cədvəl 3.3.7 göstərir ki, respondentlərin investisiya qoymaqda və əmanət saxlamaqda əsas məqsədi gözlənilməz xərcləri ödəmək və gələcək həyat şəraitini yaxşılaşdırmaqdır. Əgər gözlənilməz xərcləri ödəməyə qadınlar daha çox üstünlük verirlərsə, kişilər gələcək həyat şəraitini yaxşılaşdırmaq haqqında qadınlara nisbətən daha çox düşünürlər.

**Cədvəl 3.3.7: İnvestisiya qoymağın və əmanət saxlamağın məqsədləri, %-lə**

| | **Paytaxt** | **Digər şəhər yeri** | **Kənd yeri** | **Ümumi** | ***Ümumi-Kişi*** | ***Ümumi-Qadın*** |
|---|---|---|---|---|---|---|
| Qara gün, yaxud gözlənilməz xərclər üçün | 81,6 | 91,8 | 89,1 | **86,7** | *82,5* | *93,2* |
| Gələcək həyat şəraitini yaxşılaşdırmaq üçün | 36,8 | 52,9 | 43,8 | **43,7** | *49,4* | *35,0* |
| Uşaqlara müəyyən qədər miras qoymaq üçün | 12,3 | 15,3 | 21,9 | **15,6** | *19,4* | *9,7* |
| Müstəqil olmaq və seçim etmək imkanı əldə etmək üçün | 15,8 | 10,6 | 3,1 | **11,0** | *11,3* | *10,7* |
| Pulu xərcləməkdən çox qənaət etməyə daha çox üstünlük verirəm | 7,0 | 2,4 | 3,1 | **4,6** | *5,0* | *3,9* |
| Faiz, aktivlərin bazar qiymətinin artması və s. formalardan gəlir götürmək üçün | 4,4 | 3,5 | 0,0 | **3,0** | *4,4* | *1,0* |
| Təqaüd üçün | 0,9 | 0,0 | 6,3 | **1,9** | *1,9* | *1,9* |
| Fond birjasında spekulyasiya etmək üçün | 0,0 | 0,0 | 0,0 | **0,0** | *0,0* | *0,0* |
| Heç bir xüsusi səbəb yoxdur, bu sadəcə ailə adətidir | 0,9 | 1,2 | 0,0 | **0,8** | *1,3* | *0,0* |

Mənbə: MSS

Əmanət saxlamayan respondentlərin mütləq əksəriyyəti (92%) əsas səbəb olaraq gəlirlərin aşağı olması göstərmişlərsə, eyni zamanda onların 17%-i hələ də pul vəsaitlərini maliyyə təşkilatlarına etibar etmirlər. Bu da 90-cı illərdə ölkədə baş vermiş hadisələri əhalinin hələ də yaddan çıxarmadığını göstərir.

**Diaqram 3.3.7: Əmanət saxlamamağın səbəbləri, %-lə**




Mənbə: MSS

## 3.4. Maliyyə xidmətlərindən istifadə səviyyəsi

Respondentlərin nəzərəçarpacaq hissəsi (43%) bank plastik kartlarından istifadə edirlər. Sığorta xidməti, valyuta mübadiləsi, ipoteka kreditləri, kredit kartı, internet, mobil bankinq, daxili və xarici pul köçürmələrindən istifadə edənlərin nisbəti Bakıda yaşıyanlar arasında daha çoxdur. Kişilər qadınlara nisbətən demək olar ki, bütün maliyyə xidmətləri növlərindən daha çox istifadə edirlər (bax cədvəl 3.4.1). Ümumilikdə, bank plastik kartı və istehlak krediti istisina olmaqla kənd və digər şəhər yerlərində maliyyə xidmətlərindən istifadə səviyyəsi aşağıdır.

**Cədvəl 3.4.1: Respondentlərin istifadə etdiyi maliyyə xidmətləri, %-lə**

| | Paytaxt | Digər şəhər yeri | Kənd yeri | Ümumi | *Ümumi-Kişi* | *Ümumi-Qadın* |
|---|---|---|---|---|---|---|
| Debit kartı (Bank plastik kartı) | 41,9 | 46,1 | 40,9 | **42,8** | *44,1* | *41,3* |
| Valyuta mübadiləsi | 32,1 | 1,9 | 0,9 | **8,4** | *9,9* | *6,7* |
| İstehlak krediti | 9,0 | 5,6 | 5,9 | **6,5** | *7,7* | *5,3* |
| Sığorta xidməti | 10,1 | 4,0 | 1,4 | **4,2** | *4,3* | *4,1* |
| Daxili və xarici pul köçürmələri | 7,9 | 3,7 | 1,3 | **3,6** | *3,8* | *3,3* |
| Kredit kartı | 7,2 | 1,1 | 0,7 | **2,3** | *2,7* | *1,9* |
| Bank əmanət hesabı | 4,7 | 0,8 | 0,0 | **1,3** | *1,8* | *0,9* |
| İnternet, Mobil bankinq | 2,9 | 0,8 | 0,0 | **0,9** | *1,4* | *0,3* |
| Cari bank hesabı | 2,9 | 0,3 | 0,2 | **0,8** | *1,1* | *0,5* |
| İpoteka krediti | 1,8 | 0,0 | 0,0 | **0,4** | *0,5* | *0,3* |
| Biznes krediti | 0,0 | 0,3 | 0,5 | **0,3** | *0,5* | *0,2* |
| Şirkətin səhmlərinə investisya | 0,4 | 0,0 | 0,0 | **0,1** | *0,2* | *0,0* |
| Kənd təsərrüffatı krediti | 0,0 | 0,0 | 0,2 | **0,1** | *0,0* | *0,2* |
| ***Yuarıda göstərilənlərdən heç biri*** | ***35,0*** | ***47,7*** | ***48,6*** | ***45,2*** | ***41,7*** | ***49,1*** |
| ***Cavab yoxdur*** | ***0,7*** | ***2,4*** | ***4,1*** | ***2,8*** | ***2,2*** | ***3,4*** |

Respondentlərin təmsil etdiyi ET-lərin əksəriyyətində (56%) minimum digər bir ailə üzvü bank plastik kartlarından istifadə edir və bu göstərici digər şəhər yerlərində nisbətən yüksəkdir (59%). Ümumilikdə, bank plastik kartı və istehlak krediti istisina olmaqla kənd və digər şəhər yerlərində respondentlərin ailə üzvlərinin maliyyə xidmətlərindən istifadə səviyyəsi aşağıdır (bax cədvəl 3.4.2).

**Cədvəl 3.4.2: Respondentlərin ailə üzvlərindən maliyyə xidmətlərindən istifadə edənlər, %-lə**

| | Paytaxt | Digər şəhər yeri | Kənd yeri | Ümumi | *Ümumi-Kişi* | *Ümumi-Qadın* |
|---|---|---|---|---|---|---|
| Debit kartı (Bank plastik kartı) | 54,9 | 58,9 | 55,0 | **56,2** | 59,9 | 52,1 |
| İstehlak krediti | 3,2 | 4,3 | 4,3 | **4,1** | 3,2 | 5,0 |
| Valyuta mübadiləsi | 13,0 | 1,1 | 0,4 | **3,5** | 2,4 | 4,6 |
| Sığorta xidməti | 9,0 | 1,1 | 0,5 | **2,7** | 1,0 | 4,5 |
| Daxili və xarici pul köçürmələri | 5,1 | 1,6 | 0,7 | **2,0** | 1,4 | 2,6 |
| Kredit kartı | 4,0 | 0,8 | 0,7 | **1,5** | 1,3 | 1,7 |
| Bank əmanət hesabı | 2,2 | 0,3 | 0,0 | **0,6** | 0,3 | 0,9 |
| Cari bank hesabı | 1,8 | 0,3 | 0,0 | **0,5** | 0,5 | 0,5 |
| İpoteka krediti | 1,1 | 0,3 | 0,0 | **0,3** | 0,3 | 0,3 |
| İnternet, Mobil bankinq | 0,7 | 0,5 | 0,0 | **0,3** | 0,2 | 0,5 |
| Biznes krediti | 0,0 | 0,0 | 0,5 | **0,2** | 0,2 | 0,3 |
| Şirkətin səhmlərinə investisya | 0,0 | 0,0 | 0,0 | **0,0** | 0,0 | 0,0 |
| **Yuarıda göstərilənlərdən heç biri** | **35,0** | **36,5** | **39,3** | **37,4** | 34,5 | 40,7 |
| ***Cavab yoxdur*** | ***1,4*** | ***1,6*** | ***2,9*** | ***2,2*** | ***2,4*** | ***1,9*** |

Ümumilikdə, respondentlər yaxın 2 ildə daha çox istehlak kreditlərindən (15%) istifadə etməyi planlaşdırırlar. Yaşayış yerləri üzrə paytaxtda respondentlər əsasən bank əmanət hesabı, ipoteka kreditləri və kredit kartlarından istifadə etməyi planlaşdırırlar. Kənd və digər şəhər yerlərində yaşayanlar isə əsasən istehlak kreditləri və bank plastik kartlarından istifadə etməyi planlaşdırırlar (bax diaqram 3.4.1).

**Diaqram 3.4.1: Yaxın 2 il ərzində respondentlərin istifadə etməyi planlaşdırdıqları xidmətlər, %-lə**




Mənbə: MSS

Cədvəl 3.4.3 göstərir ki, respondentlər əsasən istehlak kreditləri (13%) və ipoteka kreditləri (10%) haqqında daha çox məlumat almaq istəyirlər. Yaşayış yerləri üzrə paytaxtda yaşayanlar əsasən ipoteka kreditləri və kredit kartı haqqında daha ətraflı məlumat almaq istəyirlərsə, digər şəhər yerlərində yaşayanlar istehlak kreditləri və bank plastik kartı haqqında, kənd yerlərində yaşayanlar istehlak kreditləri və ipoteka kreditləri haqqında daha ətraflı bilmək istəyirlər. Gender baxımından kişilər demək olar ki, bütün növ maliyyə xidmətləri üzrə qadınlara nisbətən daha çox məlumat almaq istəyirlər.

**Cədvəl 3.4.3: Respondentlər aşağıda verilmiş xidmətlər haqqında daha ətraflı bilmək, yaxud əlavə məlumat almaq istəyirlər, %-lə**

| | **Paytaxt** | **Digər şəhər yeri** | **Kənd yeri** | **Ümumi** | ***Ümumi-Kişi*** | ***Ümumi-Qadın*** |
|---|---|---|---|---|---|---|
| İstehlak krediti | 6,5 | 16,3 | 14,8 | **13,3** | *14,9* | *11,7* |
| İpoteka krediti | 16,6 | 5,1 | 9,2 | **9,6** | *10,6* | *8,6* |
| Bank əmanət hesabı | 17 | 7,5 | 2,2 | **7,2** | *7,2* | *7,2* |
| Debit kartı (Bank plastik kartı) | 4,0 | 9,9 | 6,5 | **7,0** | *7,1* | *6,9* |
| Kredit kartı | 13,4 | 4,5 | 4,1 | **6,4** | *8,0* | *4,6* |
| Sığorta xidməti | 7,6 | 2,1 | 1,4 | **3,1** | *4,0* | *2,1* |
| Cari bank hesabı | 4,0 | 6,1 | 0,4 | **3,0** | *3,4* | *2,6* |
| İnternet, Mobil bankinq | 2,5 | 4,0 | 1,3 | **2,4** | *3,4* | *1,4* |
| Valyuta mübadiləsi | 2,2 | 1,6 | 0,2 | **1,1** | *1,3* | *0,9* |
| Şirkətin səhmlərinə investisya | 4 | 0,5 | 0,0 | **1,1** | *1,3* | *0,9* |
| Daxili və xarici pul köçürmələri | 0,7 | 1,1 | 0,2 | **0,6** | *0,5* | *0,7* |
| Biznes krediti | 0,0 | 0,0 | 0,5 | **0,2** | *0,2* | *0,3* |
| ***Yuarıda göstərilənlərdən heç biri*** | ***48,4*** | ***50,7*** | ***56,2*** | ***52,7*** | ***47,1*** | ***58,7*** |
| ***Cavab yoxdur*** | ***3,6*** | ***6,9*** | ***5,6*** | ***5,6*** | ***5*** | ***6,2*** |

Diaqram 3.4.2 göstərir ki, maliyyə xidmətindən istifadə edən respondentlərin 43%-i bildimişlər ki, onlar maliyyə xidməti almaq üçün şirkət seçərkən müxtəlif şirkətlər tərəfindən göstərilən maliyyə xidmətləri şərtlərini həmişə, bəzən və ya nadir hallarda müqayisə edirlər. Yaşayış yerləri üzrə bu göstərici kənd yerlərində ən aşağı 29% və paytaxtda ən yuxarı qeyd edilmişdir (66%).

Gender baxımından bu göstərici kişilər arasında 48% və qadınlar arasında 36% müşahidə edilmişdir. Bu əsasən respondentlərin müqayisə aparmaq üçün biliklərinin olmaması və ya maliyyə xidmətlərini təklif edən təşkilatların sayının az olması nəticəsində seçim imkanlarının olmaması ilə əlaqədar ola bilər.

**Diaqram 3.4.2: Maliyyə xidməti almaq üçün şirkət seçərkən müxtəlif şirkətlər tərəfindən göstərilən maliyyə xidmətləri şərtlərinin müqayisə edilməsi, %-lə**




Mənbə: MSS

Cədvəl 3.4.4 göstərir ki, maliyyə xidmətindən istifadə edənlərin əksəriyyəti maliyyə xidməti almaq üçün şirkət seçərkən əsasən elanlar/reklamlardan, qohum/tanışların məsləhətlərindən, KİV-də nəşr olunmuş analitik materialardan, müvafiq xidmət göstərən təşkilatlarla işləyən konsultantların məsləhətlərindən və internet resurslarından istifadə edirlər. Yaşayış yerləri üzrə paytaxtda yaşayanlar arasında müvafiq xidmət göstərən təşkilatlarla işləyən konsultantların məsləhətlərindən və internet resurslarından istifadə edən edənlərin nisbəti yüksəkdirsə, kənddə yaşayanlar arasında qohum/tanışların məsləhətlərindən, digər şəhər yerlərində yaşayanlar arasında elanlar/reklamlar və KİV-də nəşr olunmuş analitik materialardan istifadə edənlərin nisbətləri yüksəkdir. Gender baxımından kişilər demək olar ki, bütün növ maliyyə xidmətlərini seçərkən qadınlara nisbətən daha çox məlumat əldə etməyə cəhd edirlər.

**Cədvəl 3.4.4: Maliyyə xidməti almaq üçün şirkət seçilərkən diqqət yetirilən məlumat mənbələri, %-lə**

| | **Paytaxt** | **Digər şəhər yeri** | **Kənd yeri** | **Ümumi** | ***Ümumi-Kişi*** | ***Ümumi-Qadın*** |
|---|---|---|---|---|---|---|
| Elanlar / Reklamlar | 24,4 | 35,2 | 32,3 | **31,0** | 31,9 | 30,0 |
| Qohum/tanışların məsləhətləri | 26,1 | 27,0 | 33,7 | **29,7** | 32,4 | 26,3 |
| KİV- də nəşr olunmuş analitik materialar | 26,1 | 34,7 | 18,2 | **25,3** | 26,6 | 23,6 |
| Müvafiq xidmət göstərən təşkilatlarla işləyən konsultantların məsləhətləri | 27,8 | 4,6 | 7,0 | **12,0** | 13,0 | 10,1 |
| İnternet resursları | 13,3 | 2,0 | 0,7 | **4,5** | 5,8 | 2,7 |
| Maliyyə şirkətlərinin müxtəlif növ xidmətləri və tarifləri üzrə məlumat materialları | 7,2 | 4,6 | 1,4 | **3,9** | 5,5 | 2,0 |
| Müstəqil maliyyə konsultantları, yaxud brokerlərin tövsiyyələri | 7,2 | 4,1 | 1,1 | **3,6** | 5,5 | 1,3 |
| İşəgötürənlərin məsləhəti | 1,1 | 0,5 | 0,7 | **0,8** | 0,8 | 0,7 |
| ***Cavab yoxdur*** | ***26,6*** | ***33,1*** | ***44,9*** | ***36,5*** | ***30,5*** | ***43,8*** |

## 3.5. Bank xidmətləri və ödəniş kartları

Respondentlərin 31%-i banka gedir və onların əksəriyyəti ayda bir dəfə bankda olurlar. Banka gedənlərin nisbəti paytaxtda daha yüksəkdir (52%) və gender baxımından kişilərin nisbəti nisbətən yüksəkdir (bax cədvəl 3.5.1).

**Cədvəl 3.5.1: Banka getmə tezliyi, %-lə**

| | Paytaxt | Digər şəhər yeri | Kənd yeri | Ümumi | *Ümumi-Kişi* | *Ümumi-Qadın* |
|---|---|---|---|---|---|---|
| ***Banka gedir (ən azı bir dəfə)*** | ***62,5*** | ***26,9*** | ***18,2*** | ***31,1*** | ***32,9*** | ***29,2*** |
| *Həftədə 1 dəfə və ya daha çox* | *4,0* | *1,6* | *0,4* | ***1,6*** | *2,4* | *0,7* |
| *Ayda bir dəfə* | *51,6* | *20,8* | *15,0* | ***25,2*** | *26,0* | *24,4* |
| *2-3 aydan bir* | *6,9* | *3,5* | *2,2* | ***3,6*** | *4,5* | *2,7* |
| *Ildə bir dəfə* | *0,0* | *1,1* | *0,4* | ***0,5*** | *0,0* | *1,0* |
| *Ildə iki dəfə* | *0,0* | *0,0* | *0,4* | ***0,2*** | *0,0* | *0,3* |
| ***Heç vaxt*** | ***37,5*** | ***73,1*** | ***81,8*** | ***68,9*** | ***67,1*** | ***70,8*** |
| **Cəmi** | **100,0** | **100,0** | **100,0** | **100,0** | **100,0** | **100,0** |

Banka müraciət edənlərin 29%-i digər xidmətlər haqqında da məlumat almış və onlara bu xidmətlər haqqında broşuralar təqdim edilmişdir. Belə hallar əsasən Bakıda müşahidə edilmişdir. Respondentlərin 47%-i isə yalnız müraciət etdiyi məsələ ilə bağlı məlumat ala bilmişdir.

**Cədvəl 3.5.2: Banka müraciət edilən zaman bankın işçiləri tərəfindən digər xidmətlər haqqında ətraflı məlumatların verilməsi, %-lə**

| | Paytaxt | Digər şəhər yeri | Kənd yeri | Ümumi | *Ümumi-Kişi* | *Ümumi-Qadın* |
|---|---|---|---|---|---|---|
| Yalnız müraciət etdiyi məsələ ilə bağlı məlumat alanlar | 29,5 | 74,3 | 49,5 | **46,9** | *49,8* | *43,5* |
| Digər xidmətlər haqqında da məlumat alanlar və bu xidmətlər haqqında broşuralar əldə edənlər | 50,3 | 7,9 | 13,9 | **29,1** | *32,2* | *25,3* |
| Digər xidmətlər haqqında da məlumat alanlar | 0,0 | 3,0 | 10,9 | **3,7** | *5,9* | *1,2* |
| ***Cavab yoxdur*** | ***20,2*** | ***14,8*** | ***25,7*** | ***20,3*** | *12,1* | *30,0* |
| ***Cəmi*** | ***100,0*** | ***100,0*** | ***100,0*** | ***100,0*** | *100,0* | *100,0* |

**Diaqram 3.5.1: Ölkə daxilində pul göndərmək üçün istifadə edilən vasitələr, %-lə**




Mənbə: MSS

Diaqram 3.5.1 göstərir ki, respondentlərin 43%-i Azərbaycanın digər bölgəsində yaşayan qohumuna/tanışına pul gondərmək lazım olduqda bankdan istifadə edəcəyini, 19%-i isə poçtla göndərəcəyini bildirmişlər. Bu fakt əhalinin köçürmə üçün bank və poçt xidmətlərinin imkanlarından məlumatlı olmasını göstərir. Yaşayış yerləri üzrə kənd yerlərində yaşayanlar pul göndərmək üçün daha çox qohum/tanışdan və poçtdan istifadə edirlərsə, paytaxtda yaşayanlar

banklardan daha çox istifadə edirlər. Bu sualla bağlı qadın və kişilərin cavabları arasında elə bir nəzərəçarpacaq fərq yoxdur.

Diaqram 3.5.2 göstərir ki, ev təsərrüfatlarının 40%-də bir nəfər və 33%-də 2-3 nəfər ödəniş kartından istifadə edir. Yaşayış regionları üzrə ödəniş kartları paytaxtda daha çox və kənd yerlərində nisbətən az yayılmışdır. Gender baxımından kişi və qadın respondentlərin ET-ləri arasında elə bir ciddi fərq yoxdur. Bu da ölkədə ödəniş kartlarının geniş yayıldığını göstərir.

Diaqram 3.5.3-də göründüyü kimi ödəniş kartlarından istifadə edən respondentlərin 98,2%-i bildirmişlər ki, onlar bankomatlardan və POS terminallardan yalnız nağd pul vəsaitinin çıxarılması üçün istifadə edirlər. Yaşayış yerləri üzrə bu göstərici paytaxtda 96,3% və kənd yerlərində 99,5% təşkil edir. Gender baxımından kişilər üçün sözügedən göstərici 97,2% və qadınlar üçün 99,3% təşkil edir.

Ödəniş kartlarından həm POS terminal və internet vasitəsilə xidmət və malların alınması üçün, həm də nağd şəkildə pul çıxarmaq üçün istifadə edənlərin nisbəti ümumi istifadəçilər içərisində 1,8% civarındadır və burada paytaxt sakinləri (3,7%) və kişilər (2,8%) nisbətən üstünlük təşkil edirlər. *Qeyd etmək lazımdır ki, bu sual variantı üzrə cəmi 16 respondent cavab vermişdir. Metodoloji baxımdan minimum 30 cavabın olması tələb olunduğundan bu sual variantı üzrə cavablar/nəticələr reprezentativ olmaya bilər.*
Diaqram 3.5.4-dən göründüyü kimi respondentlər POS terminaldan və ya internet vasitəsilə xidmət və malların alınması üçün əsasən (56%) ayda bir

**Diaqram 3.5.2: ET-lərdə kart istifadəçiləri, %-lə**




Mənbə: MSS

**Diaqram 3.5.3: Ödəniş kartlarından istifadə məqsədi, %-lə**




Mənbə: MSS

**Diaqram 3.5.4: POS terminaldan və ya İnternet vasitəsilə xidmət və malların alınması tezliyi, %-lə**




Mənbə: MSS

neçə dəfə istifadə edirlər. Paytaxt sakinləri internetdən xidmət və malların alınması üçün daha tez-tez istifadə edirlər. Gender baxımından kişilər bu vasitədən qadınlara nisbətən daha tez-tez istifadə edirlər.

Cədvəl 3.5.3 göstərir ki, respondentlər xidmət və malların alınması zamanı ödəniş kartından istifadə etməməyin əsas səbəbi kimi bu barədə onların məlumatlarının olmaması (69%) və ödəniş vasitəsi kimi kart qəbul edən təsərrüfat subyektlərinin sayının az olmasını (21%) göstərmişlər.

**Cədvəl 3.5.3: Xidmət və malların alınması zamanı ödəniş kartlarından istifadə etməməyin səbəbləri, %-lə**

| | **Paytaxt** | **Digər şəhər yeri** | **Kənd yeri** | **Ümumi** | ***Ümumi-Kişi*** | ***Ümumi -Qadın*** |
|---|---|---|---|---|---|---|
| Bu barədə məlumatı yoxdur | 35,9 | 67,6 | 88,8 | **69,5** | *69,6* | *69,5* |
| Ödəniş vasitəsi kimi kart qəbul edən təsərrüfat subyektlərinin sayının az olması | 49,3 | 24,1 | 4,6 | **21,4** | *22,9* | *19,8* |
| Ödəniş kartını qəbul edən təsərrüfat subyektlərində qiymətlərin nisbətən yüksək olması | 13,4 | 13,7 | 0,3 | **7,6** | *8,0* | *7,2* |
| Xərclərə nəzarət etməyin çətinliyi | 7,2 | 7,9 | 1,0 | **4,7** | *5,3* | *4,0* |
| Belə xidmət yoxdur / Kart istifadəsi üçün yer yoxdu | 0,5 | 5,8 | 5,4 | **4,3** | *4,7* | *4,0* |
| Əlavə komisyon haqqının tutulmasının güman edilməsi | 3,3 | 3,2 | 2,0 | **2,7** | *2,7* | *2,8* |
| Ehtiyac yoxdu | 10,0 | 0,0 | 0,0 | **2,4** | *1,8* | *3,0* |
| Təhlükəsizliyinə inamın olmaması | 2,9 | 1,4 | 1,8 | **1,9** | *1,1* | *2,8* |
| İstifadə zamanı texniki qüsurların olması və xidmətin çox ləng işləməsi | 1,0 | 0,4 | 0,0 | **0,3** | *0,2* | *0,5* |
| ***Cavab yoxdur*** | ***7,2*** | ***2,2*** | ***4,8*** | ***4,6*** | ***3,6*** | ***5,6*** |

Respondentlərin fikrincə Azərbaycanda ödəniş kartlarından daha geniş istifadəni təmin etmək üçün maarifləndirici tədbirlər geniş formada keçirilməli (52%), daha çox yerdə ödəniş kartlarından istifadə imkanı yaradılmalıdır (42%). Yaşayış yerlərinə görə bu fikrləri səsləndirənlər arasında Bakıda yaşayanlar, gender baxımından isə kişilər üstünlük təşkil etmişdir (bax: cədvəl 3.5.4).

**Cədvəl 3.5.4: Respondentlərin fikrincə Azərbaycanda ödəniş kartlardan daha geniş istifadə üçün aşağıdakılar tələb olunur, %-lə**

| | **Paytaxt** | **Digər şəhər yeri** | **Kənd yeri** | **Ümumi** | ***Ümumi-Kişi*** | ***Ümumi-Qadın*** |
|---|---|---|---|---|---|---|
| Maarifləndirici tədbirlər geniş formada keçirilməli | 55,8 | 58,6 | 44,9 | **51,9** | 53,7 | 50,0 |
| Daha çox yerdə istifadə imkanı yaradılmalı | 80,6 | 41,4 | 22,3 | **42,5** | 43,1 | 41,9 |
| Bankların xidmət tarifləri aşağı salınmalı | 14,7 | 16,1 | 9,1 | **12,7** | 13,4 | 12,0 |
| Kart hesabında qalan pul vəsaitinə faizlər hesablanmalı | 0,9 | 6,7 | 15,5 | **9,2** | 10,8 | 7,4 |
| Təsərrüfat subyektləri tərəfindən ödəniş kartlarını qəbul etməkdən imtina hallarının qarşısı alınmalı | 5,5 | 9,5 | 10,4 | **8,9** | 11,9 | 5,8 |
| ***Cavab yoxdur*** | ***6,0*** | ***20,0*** | ***37,3*** | ***24,2*** | ***20,3*** | ***28,5*** |

Respondentlərin 41%-i bankomatların normal işləmədiyini, çox vaxt onlarda pul olmadığını və 24%-i isə ətrafda çox az sayda bankomat olmasını qeyd etmişlər. Bankomatların normal işləmədiyi fikrini səsləndirənlər arasında Bakı sakinləri üstünlük təşkil etmiş və bankomatların sayının az olmasını isə əsasən kənd yerlərində yaşayanlar vurğulamışlar (bax: cədvəl 3.5.5).

| Cədvəl 3.5.5: Kart hesabından nağd pul vəsaiti çıxarılarkən müşahidə edilən problemlər, %-lə | | | | | | |
|---|---|---|---|---|---|---|
| | **Paytaxt** | **Digər şəhər yeri** | **Kənd yeri** | **Ümumi** | ***Ümumi-Kişi*** | ***Ümumi-Qadın*** |
| Bankomatlar normal işləmir (çox vaxt pul olmur) | 57,1 | 37,5 | 34,3 | **40,8** | 36,9 | 45,1 |
| Ətrafda çox az sayda bankomat var | 0,0 | 10,2 | 48,2 | **24,4** | 26,9 | 21,8 |
| Digər bankların bankomatlarından istifadə edərkən yüksək faizli xidmət haqqı tutulur | 20,3 | 17,9 | 7,1 | **13,7** | 12,9 | 14,6 |
| Gün ərzində aparılan əməliyyatların sayına məhdudiyyət qoyulub | 2,8 | 15,8 | 11,4 | **10,7** | 11,4 | 10,0 |
| Həyata keçirilən əməliyyatların həcminə məhdudiyyət mövcuddur | 1,8 | 4,2 | 3,0 | **3,1** | 3,2 | 3,0 |
| Heç bir problem yoxdur | 38,7 | 44,6 | 26,4 | **35,2** | 38,1 | 31,9 |

Diaqram 3.5.5-dən göründüyü kimi ödəniş kartlarından istifadə zamanı təhlükəsizlik qaydalarına əməl etməyənlərin nisbəti nəzərəçarpmayan səviyyədədir (15%). Belə fikirlərin səsləndirilməsində Bakı sakinləri üstünlük təşkil edir və əsasən qadınlar arasında müşahidə edilir.

**Diaqram 3.5.5: Ödəniş (debit/kredit) kartlarından istifadə zamanı təhlükəsizlik qaydalarına əməl etmə, %-lə**




Mənbə: MSS

Respondentlərin yalnız nəzərəçarpmayan bir hissəsi (1%) internet, mobil bankinq xidmətindən istifadə edirlər. Yaşayış yerlərinə görə belə xidmətlərdən istifadə edənlər paytaxt sakinləridir və gender baxımından kişilər qadınlara nisbətən bu xidmətlərdən daha çox istifadə edirlər (bax: cədvəl 3.5.6).

| Cədvəl 3.5.6: İnternet, Mobil bankinq xidmətindən istifadə səviyyəsi, %-lə | | | | | | |
|---|---|---|---|---|---|---|
| | **Paytaxt** | **Digər şəhər yeri** | **Kənd yeri** | **Ümumi** | ***Ümumi-Kişi*** | **Ümumi-Qadın** |
| Belə xidmət haqqında heç eşitməyib | 71,8 | 82,1 | 91,4 | **84,0** | *81,7* | *86,5* |
| Eşidib amma təhlükəsziliyinə inanmır və ona görə də istifadə etmir | 18,1 | 9,1 | 2,3 | **8,0** | *9,9* | *6,0* |
| Yalnız bir neçə dəfə | 2,2 | 0,5 | 0,0 | **0,7** | *1,0* | *0,3* |
| Tez –tez istifadə edir | 0,7 | 0,3 | 0,0 | **0,3** | *0,5* | *0,0* |
| ***Cavab yoxdur*** | ***7,2*** | ***8,0*** | ***6,3*** | ***7,0*** | ***6,9*** | ***7,2*** |
| **Cəmi** | **100,0** | **100,0** | **100,0** | **100,0** | ***100,0*** | ***100,0*** |

# IV. ƏSAS NƏTİCƏLƏR VƏ TÖVSİYƏLƏR

## 4.1 Nəticələr

Sorğunun nəticələrini aşağıdakı kimi ümmiləşdirmək olar:

*Sosial-demoqrafik vəziyyət üzrə:*

- Sorğuda iştirak edənlərin 52%-i kişi və 48%-i qadınlar olmuşdur. Paytaxt yerlərində sorğuda iştirak edənlər arasında qadınlar üstünlük təşkil etsə də, kənd və digər şəhər ərazilərində bu göstərici əksinə olmuşdur. Respondentlərin yaş bölgüsü göstərir ki, sorğuda iştirak edənlərin əksəriyyəti (67%) 26-55 yaşlarında olanlar olmuşdur. Sorğuda kənd yerlərində gənclər daha az iştirak etmiş və yaşlılar üstünlük təşkil etmişdir. Bu gənclərin paytaxt və digər iri şəhərlərdə ali məktəblərdə oxuması, hərbi qulluqda olması və digər yerlərə işləmək üçün miqrasiya etməsi ilə birbaşa əlaqəlidir;
- Sorğuda iştirak edənlərin əksəriyyəti ET-nin başçısı, həyat yoldaşı və ya övlad olmuşdur. Ailənin orta ölçüsü 4,4 nəfər təşkil etmişdir ki, bu da ölkə üzrə statistik göstəriciyə uyğundur. Kənd yerlərində ailələrin orta ölçüsü 4,7 nəfər və Bakıda 4 nəfər təşkil etmişdir. Qadın respondentlərin təmsil etdiyi ailələrin ölçüsü kişi respondentlərin təmsil etdiyi ailələrə nisbətən kiçik olmuşdur: müvafiq olaraq: 4,2 və 4,6. Sorğuda iştirak edənlərin 5%-i məcburi köçkün və 95%-i yerli əhali olmuşdur. Məcburi köçkünlər əsasən Bakı və digər şəhərlərdə məskunlaşanlar olmuşdur;
- Sorğuda iştirak edən respondentlərin 45%-nin təhsili ümumi orta təhsil olmuş və bu göstərici kənd yerlərində 55% təşkil etmişdir. Ali təhsillilər arasında kişilər üstünlük təşkil edirlər. Bu da ölkə üzrə mövcud statistik göstəriciyə uyğundur;
- Sorğuda iştirak edənlərin əksəriyyəti dövlət və özəl sektorda işləyənlər, özünüməşğullar, təqaüdçülər, evdar xanımlar və işsizlər olmuşdur. Respondentlərin 8,4%-i işsiz olmasını qeyd etmiş və aktiv sürətdə iş axdardıqlarını vurğulamışlar. Qeyd etmək lazımdır ki, DSK-nın 2008-ci il üzrə məlumatlarına görə ölkədə işsizlik 6% civarında olmuşdur;
- Respondentlər arasında əsas gəlir mənbəyi üzrə orta əmək haqqı 220 AZN civarındadır. Bu göstərici Bakıda ən yüksək və kənd yerlərində ən aşağı səviyyədədir. Respondentlər arasında evdar xanım, işsiz və s. kateqoriyalara mənsub olub və gəliri olmayanlar 30% təşkil etmişdir. Bu göstərici paytaxtda ən yüksək və digər şəhər yerlərində ən aşağı səviyyədə olmuşdur. Bu da paytaxtda nisbətən daha çox sayda evdar xanımların, işsizlərin və tələbələrin sorğuda iştirak etməsi ilə bağlıdır;
- Respondentlərin əksəriyyəti (54%) özlərinin maliyyə durumunu orta qiymətləndirmişlər və bu göstərici Bakıda daha yüksək olmuşdur. Təbi ki, bu subyektiv qiymətləndirmədir və real vəziyyəti tam əks etdirməyə bilər. Lakin, bu respondentlərin özlərinin maliyyə durumunu hansı səviyyədə qiymətləndirməyi təsəvvür etməyə imkan verir.

*Maliyyə savadlılığı üzrə:*

- Əksər respondentlərin ailələri (70%) gəlir və xərclərin qeydiyyatının aparmır və onların 35%-i son bir ayda nə qədər vəsait xərclənməsini xatırlaya bilmir. Bu göstərici digər şəhər yerlərində daha yüksəkdir;

- Ev təsərrüfatı başçısı qadın olan ev təsərrüfatları (76%) kişilərə nisbətən daha çox gəlir və xərclərin qeydiyyatını aparmır və onların 35%-i son bir ayda nə qədər vəsait xərclənməsini belə xatırlaya bilmir;
- Sonuncu il ərzində əksər respondentlərin ailələri (52%) növbəti gəlirədək (əmək haqqı, pensiya, təqaüd, müavinət və s.) əvvəlki qazancın müəyyən hissəsinə qənaət edə bilmirlər və bu göstərici kənd yerlərində daha yüksəkdir, yalnız 35%-i bunu bəzən və nadir hallarda bunu edə bilirlər;
- Ev təsərrüfatlarının növbəti gəlirədək qənaət edilmiş pulu olanda onlar adətən bu vəsaiti istehlak mallarının alınmasına (55%) sərf edirlər və ya nağd pul formasında evdə saxlayırlar (32%). Qənaət edilmiş pulu istehlak mallarına xərcləyənlərin nisbəti kənd yerlərində və nağd pul formasında saxlayanların nisbəti isə Bakıda daha çoxdur. Bu da kənd yerlərində həyat şəraitinin paytaxta nisbətən aşağı olması ilə izah oluna bilər;
- Respondentlərin əksəriyyəti (52%) qeyd etmişlər ki, sonuncu il ərzində onların vəsaiti yeni gəlir daxil olmazdan əvvəl qutarıb. Belə hallar kənd yerlərində daha tez-tez baş verir;
- Ev təsərrüfatının pulu növbəti gəlirdən əvvəl qurtaranda onların əksəriyyəti xərclərini azaldır və ya qənaət edirlər, habelə qohumlardan, dostlardan və tanışlardan borc alırlar. Sözügedən vasitələrdən paytaxtda yaşayanlar daha çox istifadə edirlər. Mağazadan nisyə mal alanların və kənd təsərrüfatı məhsullarını satanların nisbəti isə kənd və digər şəhər yerlərində daha geniş yayılmışdır;
- Respondentlərin əksəriyyəti (56%) son 3 ildə gəlirlərinin azalmadığını bildirmişlər. Bu göstərici digər şəhər yerlərində daha yüksək və Bakıda ən aşağı olmuşdur. Lakin ev təsərrüfatlarının 45%-də bədbəxt hadisələr, iş yerlərinin itirilməsi və s. səbəblərdən gəlirlərdə azalmalar baş vermişdir;
- Son il ərzində ev təsərrüfatlarının əksəriyyəti (72%) hər hansı bir səbəbdən borc almışlar. Sorğuda iştirak edən ev təsərrüfatlarının 48%-nin hazırda borcu vardır. Bu göstərici kənd yerlərində (49%) daha yüksək və digər şəhər yerlərində (44%) isə daha aşağıdır;
- Daşınmaz əmlakın (mənzil, bağ evi) və avtomobilin alınması üçün götürülmüş kreditlər nəzərə alınmadan ev təsərrüfatlarının borcu əsasən onların 1-6 aylıq (77%) gəlirləri həcmindədir;
- Sorğuda iştirak edən respondentlərin 43%-i qeyd etmişlər ki, onların əvvəllər nisbətən imkanlı dostları, tanışları arasında sonralar gözlənilməz maliyyə problemləri ilə qarşılaşanlar olmuşlar. 25%-nin fikrincə bunun səbəbi ardıcıl baş verən bədbəxt hadisələr, 18%-nin fikrincə isə buna səbəb vəsaitlərin düzgün idarə edilməməsi olmuşdur. Vəsaitlərin düzgün idarə edilməməsi faktlarını digər şəhər yerlərində və kənd yerlərində yaşayanlar nisbətən çox vurğulamışlar: müvafiq olaraq 20% və 19%. Eyni zamanda, digər cavab variantı kimi 1% civarında respondent buna səbəb kimi iqtisadi böhran və aldadılma hallarını qeyd etmişlər. Beləliklə, sorğunun nəticələri təsdiqləyir ki, kənd və digər şəhər yerlərində daha çox insanların pulun düzgün idarə edilməməsi və planlaşdırmaq problemləri vardır. Bu isə birbaşa olaraq sözügedən regionlarda insanların təhsil səviyyəsinin paytaxtla müqayisədə aşağı səviyyədə olması və sadə maliyyə hesablamalarının aparıla bilinməməsi ilə əlaqədar ola bilər;
- Respondentlərin əksəriyyətinin (94%) əmanətlərin sığortalanması ilə bağlı məlumatı yoxdur, yalnız onların kiçik bir hissəsi (6%) bu haqda məlumatlıdır. Məlumatlılıq səviyyəsi qadınlar arasında daha aşağıdır;

- Respondentlərin 51%-nin fikrincə banklar iflasa uğradığı zaman hökumət yaranan itkilərə görə fərdi şəxslərə kompensasiya verməlidir. Belə fikirləri paytaxtda yaşayanlar və qadın respondentlər daha çox vurğulamışlar;
- Qanunvericiliyə görə bank krediti verilərkən kreditin müddəti, illik faiz dərəcəsi, komisyon haqlar və digər şərtlərin kim tərəfindən müəyyən edilməsi ilə bağlı respondentlərin 53% məlumatlıdır. Yaşayış yerləri üzrə paytaxtda məlumatlılıq səviyyəsi regionlara nisbətən 25% yuxarıdır: müvafiq olaraq 72% və 47%. Gender baxımından kişilər arasında məlumatlılıq səviyyəsi qadınlara nisbətən 13% yüksəkdir: müvafiq olaraq 58.8% və 46.3%.
- Respondentlərin əksəriyyətinin həyatı sığorta edilməmişdir (97%) və onların nəzərəçarpacaq hissəsi sığorta təşkilatlarına inammadığını bildirmişlər (35%). Belə fikirlər kişilər tərəfindən nisbətən çox vurğulanmışdır (36%).
- Respondentlər əsasən neftin, qızılın, metalın və s. qiymətlərindəki dəyişikləri (50%); infilyasiya dərəcəsində dəyişiklikləri (37%); pensiyaların səviyyəsində, gəlirlərdə və vergidən azad olma hallarında dəyişiklikləri (35%) izləyirlər. Paytaxtda yaşayan respondentlər kapital bazarında qiymətlərin və indekslərin dəyişməsi istisina olmaqla digər məlumatları aktiv surətdə izləyirlər. Lakin digər şəhər və kənd yerlərində yaşayanlar əsasən qızıl, infilyasiya, pensiya, vergi ilə bağlı məlumatları daha çox izləyirlər. Kişi respondentlər yuxarıda sadalanan bütün məlumatların izlənməsində qadınlardan nəzərəçarpacaq dərəcədə fəaldırlar;
- Maliyyə məlumatlarını izləyən respondentlərin böyük əksəriyyəti bu məlumatları əsasən TV proqramlardan, qəzetlərdən və jurnallardan (91%) izləyirlər. Eyni zamanda, dostlar/tanışlar və elanlar/reklamlardan da nəzərəçarpacaq dərəcədə istifadə edilir. Yaşayış yerləri üzrə ixtisaslaşmış internet saytlarından paytaxt sakinləri daha çox istifadə edirlər (17%). Məlumatları izləyən kişi və qadınları müqayisə etdikdə görürük ki, qadınlar maliyyə məlumatlarını kişilərə nisbətən TV proqramlardan, qəzetlərdən və jurnallardan daha çox izləyirlər. Digər vasitələrin istifadəsində isə kişilər daha çox aktivdirlər;
- Respondentlərin yalnız 4.4% bildirmişdir ki, onlar son 5 ildə maliyyə xidmətindən istifadə zamanı məmnun qalmamışlar. Belə hallar digər şəhər və kənd yerlərində yaşayan respondentlər tərəfindən daha çox vurğulanmışdır. Respondentlər bildirmişlər ki, onların narazılığı əsasən istehlak krediti, bank əmanəti və biznes krediti götürülən zaman baş vermişdir. Narazılıqlar yaranan zaman respondentlər heç nə etməmişdir, yalnız onların kiçik bir hissəsi (15%) aidiyyəti dövlət orqanlarına şikayət təqdim etmiş və ya müqaviləni vaxtından əvvəl dayandırmışlar;
- Respondentlərin nəzərəçarpacaq hissəsi (36%) bildirmişlər ki, əgər onunla maliyyə xidmətləri göstərən təşkilatlar (bank, sığorta şirkəti və s. bu kimi) arasında münaqişə baş verərsə, onun tez və ədalətli həll olunacağına əmin deyillər. Bu cür fikir söyləyənlər Bakıda yaşayanlar arasında üstünlük təşkil etmiş və kişilər arasında əminsizlik qadınlara nisbətən yüksək olmuşdur;
- Respondentlərin nəzərəçarpacaq hissəsi (44%) özlərinin maliyyə savadını orta qiymətləndirmişlər. Bu göstərici Bakıda daha yüksək və kənd yerlərində ən aşağı qeyd edilmişdir. Qadınlara nisbətən kişilərin daha çox hissəsi maliyyə savadını orta qiymətləndirmişlər. Təbii ki, bu subyektiv qiymətləndirmədir və real vəziyyəti tam əks etdirməyə bilər. Lakin, bu respondentlərin özlərinin maliyyə savadını necə qiymətləndirməyi müşahidə etməyə imkan verir;
- Elementar riyazi maliyyə savadının və ya sadə maliyyə hesablamalarının təhlili göstərir ki, respondentlərin nəzərəçarpacaq hissəsi bununla bağlı suallara yanlış cavab vermiş və ya da cavab verə bilməmişlər. Orta hesabla respondentlərin 55%-i suallara düzgün cavab

vermişlər. 45%-i isə yanlış və ya cavab verə bilməmişlər. Yaşayış yerləri üzrə Bakıda (64%) yaşayanlar arasında düzgün cavab verənlərin nisbəti ən yüksək və kənd yerlərində (48%) yaşayanlar arasında ən aşağı olmuşdur. Kişilərin 59%-i suala düzgün cavab verdiyi halda qadınların yalnız 51%-i düzgün cavab vermişdir. İqtisadi regionlar üzrə ən çox düzgün cavab verənlər Bakıda və ən az düzgün cavab verənlər Şəki-Zaqatalada (41%) qeyd edilmişdir;

- Respondentlərin fikrincə kredit götürülən zaman və əmanət qoyulan zaman bankı seçmək üçün ilk növbədə i) bankın imici/reputasiyası və onun etibarlılığına (59%); və ii) kredit/əmanət üzrə faiz dərəcəsi və kredit xərclərinə (29%) fikir vermək lazımdır. Nəzərəçarpacaq fakt ondan ibarətdir ki, paytaxtda yaşayan respondentlər bankın imici/reputasiyası və onun etibarlılığına daha çox üstünlük verirlər və bu fikir qadınlar arasında daha çox səslənmişdir.
- Respondentlər maliyyə təlimi kurslarında əsasən aşağıdakı mövzuların olmasını arzulamışlar:
  1. Kreditdən istifadə edərkən həddindən artıq borclanmamaq üçün nə etmək lazımdır?
  2. Pensiya sistemi necə işləyir və vətəndaşlar yaşlandığı zaman gəlirlə təmin edilmənin hansı metodları mövcuddur?
  3. Uzun müddətli istehlak mallarının (avtomobil, mənzil, bağ evi) alınması üzrə planı necə qurmaq və onun həyata keçirilməsi imkanlarını qiymətləndirmək?
  4. İpoteka kreditləri.
  5. İstehlakçı hüquqlarını müdafiə edən hansı qanunlar mövcuddur və istehlakçının hüquqları pozularkən nə etmək lazımdır?
- Pensiaya sistemi ilə bağlı təlim mövzusu istisina olmaqla digər mövzular ilə kişilər qadınlara nisbətən daha çox maraqlanmışlar. Respondentlər maliyyə savadlılığının artırılmasında Kütləvi İnformasiya Vasitələrinin həlledici rol oynaya bilməsini qeyd etmişlər;
- Respondentlərin fikrincə onlar əlavə vəsait əldə etdiyi halda ilk növbədə onları istehlak mallarına yəni həyat şəraitinin yaxşılaşdırılmasına sərf edəcəklər. Belə fikirlər qadınlar arasında kişilərə nisbətən daha çox səslənmişdir. Eyni zamanda kişilər qadınlara nisbətən əlavə vəsaitin biznesin inkişafına yönəldəcəklərini qeyd etmişlər. Banka əmanət kimi qoyanların nisbəti isə nəzərəçarpacaq dərəcədə deyil (6%);
- Respondentlərin nəzərəçarpacaq hissəsi (47%) gündəlik gəlirlərini gündəlik ehtiyaclara xərcləyirlər. Bu da respondentlərin maliyyə imkanlarının elə də geniş olmamasını göstərir;
- Respondentlərin yalnız 22%-i investisiya və ya əmanət qoymuşlar. Bakıda yaşayanlar arasında bu göstərici orta göstəricidən 2 dəfəyə yaxın yüksəkdir, kənd yerlərində isə bu göstərici orta göstəricidən 2 dəfə aşağıdır;
- Respondentlərin investisiya qoymaqda və əmanət saxlamaqda əsas məqsədi gözlənilməz xərcləri ödəmək və gələcək həyat şəraitini yaxşılaşdırmaqdır. Əgər gözlənilməz xərcləri ödəməyə və evin təhcizatının yaxşılaşdırılmasına qadınlar daha çox üstünlük verirlərsə, kişilər gələcək həyat şəraitini yaxşılaşdırmaq haqqında qadınlara nisbətən daha çox düşünürlər. Əmanət saxlamayan respondentlərin mütləq əksəriyyəti əsas səbəb olaraq gəlirlərin aşağı olması göstərmişlərsə, 17%-i hələ də pul vəsaitlərini maliyyə təşkilatlarına etibar etmirlər;
